

# XİN-dən CHP-li millət vəkilinin açıqlamasına reaksiya

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyə Respublikasının Cümhuriyyət Xalq Partiyasından (CHP) olan millət vəkili Aykut Ərdoğdunun ittihamedici açıqlamasının şərh edilməsi ilə bağlı yerli KİV-in sualını cavablandırıb.*

Səh.2


# UNİKAL

№04 (2089) 4 fevral 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Allahşükür Paşazadənin ən böyük səhvi...

## Şeyxülislamın səlahiyyətləri niyə əlindən alınmağa başlayıb?

*İcazə versəniz, söhbətə lap əvvəldən başlayardıq. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) 1959-cu ildə qeydiyyata alınıb və Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bazasında yaradılmışdır, onun öhdəliklərinin daşıyıcısı və hüquqi varisidir. Bu idarə regionda - Azərbaycan Respublikasında, Ermənistan Respublikasında, Gürcüstan Respublikasında, Rusiya Federassiyasının Şimali Qafqaz (Dağıstan, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz, Kabarda-Balkar, Adıgey və Şimali Osetiya-Alaniya) ərazisində yaşayan müsəlmanların dini qurumlarını özündə birləşdirən tarixi, İslam dini ali mərkəzidir. Azərbaycan Respublikasında təşkilat məsələlərində İslam dini icmaları da QMİ-yə tabedirlər.*

Səh.8

Səh.9



# Ermənistan Üçtərəfli İşçi Qrupun işini pozmaqda davam edir

## “Korrupsioner məmurlar kənarda qalır, hamı deputatın üstünə düşür”



*Vəhdət Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Tahir Kərimli "Unikal" qəzetinə müsahibə verib. Millət vəkili ilə söhbətə "Sosial şəbəkələr haqqında" qanun layihəsi ilə bağlı sualla başladıq.*

Səh.4

## Cavanşir Feyziyevin milyonlarla manatlıq feyziyablığı...



*Yola salmaq üzrə olduğumuz həftə ilginc hadisə yaşandı: Böyük Britaniyanın Milli Cinayət Agentliyinin araşdırmasından sonra Azərbaycan parlamentinin üzvü Cavanşir Feyziyevin yaxınlarına məxsus bank hesabındakı milyonlarla funt-sterlinq müsadirə edildi!*

Səh.5

## Məktəblərin internetə əlçatanlığı artır



*Müasir təhsilin tələblərindən biri də təhsil müəssisələrində keyfiyyətli internetə əlçatanlığın təmin olunmasıdır. Bu gün paytaxt məktəblərində bununla bağlı vəziyyət qismən yaxşı olsa da, bölgələrdə təhsil müəssisələrinin internetlə təminatı ürəkaçan səviyyədə deyil. Hətta bu gün internet olmadığından bəzi dərs proqramlarının...*

Səh.11

# Tanınmış müğənnilərin şantaj edilməsi cinayətinin detalları



***Ötən ildən axtarışda olan, Ukraynada saxlanılaraq Azərbaycana təhvil verilən? keçmiş iş adamı, bloqer Maqsud Mahmudovun tanınmış müğənnilər Vasif Məhərrəmli və Afət Fərmanqızıya qarşı törətdiyi cinayət əməlinin detalları üzə çıxıb.***

"Unikal" Qafqazinfo-ya istinadən xəbər verir ki, M.Mahmudov beynəlxalq axtarışda olduğu vaxt, 2020-ci ildə yutubda əməkdar artist Vasif Məhərrəmlinin şəxsi həyatı barədə ictimai nüfuzuna xələl gətirən fikirlər səsləndirib. Daha sonra Ukrayna mobil nömrəsindən mesaj yazaraq onun özündən yaşca böyük qadınla nikahdankənar münasibətləri və şəxsi həyatı barədə məlumatlara malik olduğunu deyib. M.Mahmudov həmin məlumatları sosial şəbəkələrdə yayma hədəsi ilə əməkdar artistdən 1000 manat tələb edib. V.Məhərrəmli isə üçüncü şəxs vasitəsilə pulu M.Mahmudova verib.

Keçmiş iş adamı eyni tələblə müğənni Afət Fərmanqızını da hədələyib. Belə ki, Mahmudov müğənninin intim görüntülərinə malik olduğunu deyib və şəxsi həyatı barədə məlumatları sosial şəbəkələrdə yaymaqla hədələyib. Lakin A.Fərmanqızı M.Mahmudovun tələb etdiyi 1000 manatı ona verməyib. Bundan sonra təqsirləndirilən şəxs yutubda müğənninin şəxsi həyatı ilə bağlı rüsvayedici hesab olunan məlumatlar yayıb.

Vasif Məhərrəmli işlə bağlı dindirilərkən bildirib ki, o, yutubda özü haqqında videonu görəndən sonra Mahmudovla əlaqə yaradıb: "Maqsud adlı şəxs mənim barəmdə təhqir və rüsvayedeci video yaymışdı. Həmin videoya baxanda gördüm ki, bu adam mənim anam yaşında bir qadınla qeyri-rəsmi yaşadığımı və həmin qadına guya 3 otaqlı mənzil alıb orada saxladığımı deyir. Videoda onun yerləşdirdiyi xarici nömrəyə zəng vurub danışdım. Maqsuda bildirdim ki, yaydığı məlumatlar həqiqəti əks etdirmir. Həm də ailəmdə və tanıdığım şəxslər arasında lazımsız söz-söhbətə səbəb olur.

Bir müddət sonra Maqsud həmkarlarım-Manaf Ağayev və Afət Fərmanqızı haqqında da oxşar məlumatlar yaydı. Manaf və Afət xahiş etdilər ki, onları Maqsudla danışdırım. Üçümüz Maqsudla görüntülü danışdıq və xahiş etdik ki, sənət adamları barəsində belə şeylər yaymasın. Bir müddət sonra Maqsud mənə zəng edərək təcili 1000 manat lazım olduğunu, pulu verməsəm, yutubda mənim özümdən yaşca böyük qadınla nikahdankənar münasibətdə olmağımı və məni nüfuzdan salacaq rüsvayedici məlumatlar yayacağını dedi. Bildirdi ki, videoda ağır ittihamlar olacaq və məni elə hörmətdən salacaq ki, çölə çıxmağa üzüm olmayacaq. İllərdir qazandığım hörmət yerə deyməsin deyə, Maqsudun hədə-qorxusuna inanıb razılaşdım. Pulu göndərdiyi bir adama verdim. Pulu verəndən sonra Maqsud daha haqqımda heç bir məlumat yaymadı. Onun tutulub Azərbaycana gətirildiyini öyrənəndən sonra şikayət etmək qərarına gəldim".

Müğənni Afət Fərmanqızı isə ifadəsində bildirib ki, yutubda Maqsud Mahmudovun onun barəsində yaydığı videonu görəndən sonra müğənni tanışı Manaf Ağayevdən kömək istəyib:

Manaf mənə Vasif Məhərrəmlinin bu işdə kömək göstərə biləcəyini dedi. Üçümüz vatsapdan Maqsuda görüntülü zəng elədik. O, mənim oğlunun atasının kimliyinin bəlli olmadığını demişdi. Mənim oğlum yetkinlik yaşındadır və bunu görüb depressiv hala düşmüşdü. Hətta özünə qəsd edəcəyindən də ehtiyat etmişdim. Bir müddət sonra Maqsud zəng edib maddi sıxıntıları olduğunu dedi. Bildirdi ki, mənim gürcüstanlı bir adamla intim görüntülərimi əldə edib. Dedi ki, "1000 manat versən, görüntüləri yaymayacağam". Amma mənim heç bir gürcüstanlı şəxslə yaxın münasibətim olmadığından Maqsudun hədə-qorxu ilə 1000 manat pul almağa çalışdığını başa düşdüm. Ona görə də pulu verməkdən imtina etdim. Bir neçə gün sonra Maqsud yutubda mənim guya Paşa adlı gürcüstanlı şəxslə intim görüntülərim olduğunu deyərək video yaydı. Daha sonra Ukraynanın səlahiyyətli şəxslərinə müraciət edib Maqsud Mahmudovun qanunsuz əməlləri barədə məlumat verdim. Bir müddət sonra da onun tutularaq Azərbaycana gətirildiyini gördüm".

Qeyd edək ki, külli miqdarda dələduzluq etmək ittihamı ilə axtarışa verilən Maqsud Mahmudov ötən ilin sentyabrında Ukraynada saxlanılıb. Azərbaycana təhvil verilən Mahmudovun 90 nəfəri aldadaraq zərər verdiyi bildirilir.



# "Mənə heç "sağ ol" da demədi" - Abbas Bağırov

***Əməkdar artist Abbas Bağırov başına gələn hadisəni danışıb.***

Müğənni "Söhbət var" proqramında bir dəfə içərisində pul olan pulqabı tapdığını deyib:

"İçərisində 800 manat və sürücülük vəsiqəsi var idi. Sahibini tapıb verdim özünə. Amma "sağ ol" da demədi. Gözləyirdim ki, hörmət etsin, etmədi".

# Miri Yusif Sevinci məhkəməyə verdi

***Xalq artisti Miri Yusif onun haqda kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə ittihamlar səsləndirən və çıxışlarında təhqirə yol verdiyi iddia etdiyi müğənni Sevinc Musayevanı məhkəməyə verib.***



"Unikal" xəbər verir ki, olay-ın əldə etdiyi məlumata görə, Bakı şəhər Binəqədi rayon məhkəməsində Musayeva Sevinc Aydın qızına qarşı cinayət məcəlləsinin 144-148-ci maddələrində yer alan şəxsin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər bölməsi əsas götürülüb.

Belə ki, hakim Vüsal Tağıyevin sədrliyi ilə keçən iclasda S.Musayeva 147.1 - Böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma, 148 - Təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma maddələri ilə ittiham olunub.

Yanvarın 28-də keçirilən hazırlıq iclasına Sevinc Musayeva qatılmayıb, növbəti iclas 7 fevrala təyin edilib.

Qeyd edək ki, S.Musayeva Miri Yusif haqda əvvəlcə sosial şəbəkədə "Miri Yusif, sən mikrofon əvəzinə əlinə çomaq al və get qoyun otar. Sənə müğənnilikdən çox çoban olmaq yaraşır. Sən çobansan. Bunu sən və yanında hərlədiyin ayaqqabı silənlərin sübut etdi. Bir qram insanlığın yox imiş. İnsanlığı olmayan belə zibillərin özlərini göylə aparmağa ixtiyarı yoxdur" sözlərini yazmışdı.

O, daha sonra "Youtube" kanalında video paylaşaraq daha uzun bir açıqlama vermişdi. Əldə etdiyimiz məlumata görə, S. Musayeva həmin görüntüləri kanalından silib.

Onu da bildirək ki, 147.1 maddə sübuta yetirilərsə, günahkar min manatdan min beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

148-ci maddənin cəzası isə min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmədir.

# "Ramiz Mehdiyev məndən xahiş etdi ki..." - Elton Məmmədov



***"Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasına Prezident təyin edildəndən sonra məni yanına çağırıb xahiş etdi ki, ona görüləcək işlərdə köməklik edim. Mən AMEA-da əmək fəaliyyətimə Yüksək Texnologiyalar Parkının direktoru kimi başladım".***

"Unikal" xəbər verir ki, bunu sabiq deputat Elton Məmmədov Laf TV-nin efirində çıxış edərkən deyib. O, AMEA-nın işlər idarəsinin müdiri vəzifəsinə təyin olunmasından da danışıb: "İki aydan sonra Ramiz Mehdiyev məndən AMEA-nın işlər idarəsinin müdiri vəzifəsinə gəlməyimi xahiş etdi. İşlədiyim dövrdə aramızda heç bir problem yox idi. Hətta Ramiz Mehdiyev özü Rəyasət Heyətinin iclaslarının birində görülən işlərlə bağlı mənim ünvanıma tərif dedi.

Nəhayət, aprel ayının 12-i Ramiz Mehdiyev məni yanına dəvət edib dedi ki, guya, yuxarıdan göstəriş var ki, mən həmin vəzifədən getməliyəm. Mən isə ona dedim ki, axı mən niyə getməliyəm?! Axı, bu qədər işlər görmüşəm. Daha sonra mən araşdırma apardım və məlum oldu ki, yuxarıdan heç bir göstəriş olmayıb. Bu, Ramiz Mehdiyevin hiyləgər siyasətidir".

***Murad İbrahimli***

# İşğaldan azad edilmiş ərazilərdə neçə hərbi hissə açılıb? - RƏSMİ



***İşğaldan azad edilmiş ərazilərdə ötən il istifadəyə verilmiş hərbi hissələrin sayı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzinin yaydığı məlumatda qeyd edilib.

Məlumata görə, işğaldan azad edilmiş ərazilərdə DSX-nin 19 yeni hərbi hissə kompleksi, Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan, Qubadlı rayonları ərazisindən və Laçın rayonunun bir hissəsindən keçən sahəsində 104 sərhəd-döyüş məntəqəsi xidməti-döyüş fəaliyyətinə başlanılıb.

Azərbaycan-Ermənistan dövlət sərhədində "Eyvazlı" və "Qazançı" dövlət sərhədindən buraxılış məntəqələri fəaliyyətə başlamış, "Füzuli" beynəlxalq hava limanında sərhəd nəzarətinin təşkili üzrə tədbirlər görülüb, İAMAS-ın stasionar və səyyar iş yerləri yaradılıb.

İşğaldan asad edilmiş ərazilərdə 73,8 km məsafədə yeni yol çəkilib, 121,4 km məsafədə yolların əsaslı və cari təmiri həyata keçirilib.

# Alban dini məbədləri ilə bağlı İşçi qrup yaradılıb

***"Ermənilərin alban dini məbədlərinin üzərinə yazdıqları qondarma izlərin aradan qaldırılması üçün alban tarixini, arxitekturasını bilən mütəxəssislərdən ibarət İşçi qrup yaradılıb".***

"Unikal" xəbər verir ki, bunu mədəniyyət naziri Anar Kərimov deyib.

O bildirib ki, qrupda həm də dövlət qururmlarının nümayəndələri təmsil olunurlar: "İşçi qrupunun üzvləri ilə həmin yerlərə baxış keçirib, baxışdan sonra növbəti addımlarımızı fikirləşəcəyik".

# Türkiyə səfiri Şuşadan paylaşım etdi

***Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Şuşa şəhərindən yeni görüntülər paylaşıb.***

"Unikal" xəbər verir ki, səfir videonu öz rəsmi tviter hesabında paylaşıb.

"Yayda ayrı, qışda ayrı gözəl Şuşa" - deyə səfir paylaşımında qeyd edib.

# Allahşükür Paşazadənin ən böyük səhvi...

## Şeyxülislamın səlahiyyətləri niyə əlindən alınmağa başlayıb?

***İcazə versəniz, söhbətə lap əvvəldən başlayardıq. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) 1959-cu ildə qeydiyyata alınıb və Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bazasında yaradılmışdır, onun öhdəliklərinin daşıyıcısı və hüquqi varisidir.***

Bu idarə regionda - Azərbaycan Respublikasında, Ermənistan Respublikasında, Gürcüstan Respublikasında, Rusiya Federassiyasının Şimali Qafqaz (Dağıstan, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz, Kabarda-Balkar, Adıgey və Şimali Osetiya-Alaniya) ərazisində yaşayan müsəlmanların dini qurumlarını özündə birləşdirən tarixi, İslam dini ali mərkəzidir. Azərbaycan Respublikasında təşkilat məsələlərində İslam dini icmaları da QMİ-yə tabedirlər.

Bundan başqa, İdarəyə başqa ərazilərdə yaşayan müsəlmanların dini qurumları da birləşə bilərlər. Belə dini qurumlarla QMİ-nin münasibətləri qarşılıqlı razılıq üzrə həyata keçirilir.

QMİ Qurani-Kərimin tələb və müddəalarını, Peyğəmbər (s) hədislərini əsas tutaraq, bütün şəri və öz səlahiyyətləri daxilində dini icmaların təşkilati məsələlərinin həllini təmin etmək, onların fəaliyyətlərinə nəzarət etmək və fəaliyyətlərini əlaqələndirmək, məzhəb ayrı-seçkiliyinə yol verməmək məqsədi daşıyır.

Yazını bu cür statistik bilgilərlə kifayət qədər davam etdirmək olar. Ancaq...

Ancaq məsələ orasındadır ki, adıçəkilən qurumun adı ətrafında son illərdə yalnız qalmaqallı xəbərlər oxuyuruq. Bunun ilk səbəbi isə QMİ-nin sədri bütün Qafqazın Şeyxi Allahşükür Paşazadədir.

Bir az da konkretləşdirək: ruhi-mənəvi orqan olan QMİ-nin rəhbəri axır özünün və yaxınlarının biznes qalmaqalları ilə gündəmə gəlməkdədir. Məsələn, ölkəyə ixrac olunan tərəvəz məhsullarının cənab Paşazadənin inhisarında olduğu bilinirdi. Lakin Allahşükür müəllim bir qayda olaraq belə məlumatlara münasibət bildirmir, bildirəndə isə ortaya sübut qoyulmasını istəyirdi. Onun bu sıradan olan açıqlamalarından birindən sitat: "Bəzən mənim adımı şüşə, armatur, alma, soğan və kartof biznesi ilə məşğul olan şəxs kimi hallandırırlar. Bunların heç biri həqiqətə uyğun deyil. Bir şey haqqında danışanda ortaya sübut qoymaq lazımdır".

Sosial şəbəkələrdə Allahşükür Paşazadənin Çexiyada biznesinin olduğu haqda da məlumatlar yayılmışdı. Həmin məlumatlardan birində fotolar, Çexiyanın müvafiq qurumlarının reyestr məlumatları təqdim olunurdu. Məsələn, qeyd olunurdu ki, Marketa Şpişakova adlı bir çex qadın QMİ rəisinin şərikidir, 36 yaşı var. O da deyilirdi ki, həmin qadın ixtisasca həkimdir, heç bir sərmayə qoymadan Allahşükür Paşazadənin və qardaşı, Milli Məclisin deputatı Cavanşir Paşazadənin Çexiyada, Karlovı Varıda açdığı "Aynur KV" şirkətinin ortağıdır.



Bu qadının valideynlərinin belə hardansa 3 şirkətə sahib olduğu barədə yazılmayıb!

A.Paşazadənin və onun deputat qardaşının adı bundan əvvəl ölkə daxilində qurulan daha bir biznes layihəsindən doğan mübahisədə hallanırdı. Məsələnin mahiyyəti bu idi ki, Müğdət Həşimov Paşazadələrlə birgə fəaliyyət haqda müqavilə imzalamışdı. Müqavilə üzrə M.Həşimov Paşazadələrə məxsus "Medi-Sina" klinikasını işlətmiş, sonradan tərəflər arasında mübahisə yaranmışdı.

Bundan sonra Paşazadələrin yaxın bir adamı dövriyyəyə girib və onun iddiası əsasında M.Həşimov həbs olunub. Bir müddət əvvəl isə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il azadlıqdan məhrum edilib. İtthama görə, Paşazadələrə məxsus "Medi-Sina" klinikasına avadanlıqların alınması məqsədilə ayrılmış vəsaitdən 193 min manatın mənimsənilməsində ittiham olunan Müğdət Həşimov özünü təqsirli bilmir.

Bütün bu iddiaları niyə xatırladırıq. Sadə səbəbdən: QMİ kimi mənəvi-ruhani bir idarənin sədri son zamanlar ancaq biznes məsələləri, mal-mülk davaları və maddiyyat motivli digər mübahisələrlə gündəmə gəlirdi. Nəticədə onun ictimai nüfuzu kəskin sarsılmışdı.

Nəhayət, günlərdir Allahşükür müəllimin bir sıra səlahiyyətlərindən məhrum olduğuna dair xəbərlər bir-birini əvəzləyir. Məsələn, "Dini etiqad azadlığı haqqında" qanuna bir sıra dəyişiklərin edilməsi təklif olunur. Qanunun 8-ci maddəsinə təklif olunan dəyişikliklə Azərbaycanda İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara rəhbərlik edən din xadimlərinin təyinatı səlahiyyəti Qafqaz Müsəlmanları İdarəsindən alınır və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə verilir.

Digər dəyişiklik isə dini qurumların dövlət qeydiyyatına alınması qaydası ilə bağlıdır. Belə ki, burada da dini qurumların (dini icmalar bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş sənədlər nəzərə alınmaqla) dövlət qeydiyyatına alınması səlahiyyəti Qafqaz Müsəlmanları İdarəsindən alınaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilir.

Daha da konkretləşdirsək, Allahşükür Paşazadənin səlahiyyətləri bir-birinin ardınca əlindən alınır. Üstəlik, QMİ uzun illərdən bu yana sahib olduğu nüfuzu, imici itirir. Təəccüblüdürmü? Əsla! Allahşükür müəllim özü və yaxınlarının adı ətrafında müəmmalı, müşkül biznes qalmaqallarına "yaşıl işıq" yandıraraq ciddi səhvə yol verib. İndi isə həmin səhvlər cənab Paşazadə və rəhbəri olduğu qurumun səlahiyyətləri əlindən alınmaqla düzəldilir...

***Toğrul Əliyev***

# Ermənistan Üçtərəfli İşçi Qrupun işini pozmaqda davam edir

## Ceyhun Bayramov: "Bəzən müsbət mesajlar gəlir, bəzənsə fərqli fikirlər eşidirik ki, bu da vəziyyəti çətinləşdirir"

***Regionlarımızda dinamik proseslər baş verir, bu kontekstdə koordinasiyalı əməkdaşlıq üçün məsləhətləşmələrin keçirilməsi razılaşdırılıb.***

"Unikal"ın xəbərinə görə, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Bakıda səfərdə olan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə birgə mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, macar həmkarı ilə görüşdə postmünaqişə dövründəki vəziyyət, eyni zamanda, azad olunmuş ərazilərin bərpası prosesində Azərbaycan hökumətinin üzləşdiyi çətinliklər müzakirə olunub: "Minatəmizləmə məsələsi ətraflı şəkildə müzakirə olunub. Macarıstan bir il əvvəl könüllü şəkildə bu məsələyə öz töhfəsini verib. Aİ ilə müzakirələrdə də Macarıstan tərəfi bu məsələni vurğulayıb. Biz Macarıstanın Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyini müşahidə etmişik və buna görə Macarıstana təşəkkür edirik. Macarıstan şirkətlərinin azad olunmuş ərazilərə marağını ifadə etməsini dost addımı hesab edirik və inanırıq ki, tezliklə onlar bu prosesə qatılacaqlar".



Ceyhun Bayramov macar həmkarını keçmiş məcburi köçkünlərin 2022-ci ildə geri dönüşünün başlanacağına dair məlumatlandırıb: "Həmçinin normallaşma ilə bağlı hökumətimizin atdığı addımlar barədə həmkarımı məlumatlandırdım. Təəssüf ki, Ermənistan tərəfindən Üçtərəfli İşçi Qrupun fəaliyyəti pozulub. Hələ ki, bu məsələdə ardıcıllıq görmürük. Bəzən müsbət mesajlar gəlir, bəzənsə fərqli fikirlər eşidirik ki, bu da vəziyyəti çətinləşdirir".

"Delimitasiya prosesinin başlanması ilə bağlı birgə ikitərəfli komissiyanın yaradılması istiqamətində davamlı, ardıcıl yanaşmanı müşahidə etmirik", - deyən nazir qeyd edib ki, iki həftə əvvəl Ermənistan tərəfi Rusiya vasitəsilə təkliflərini göndərib: "Bəlli ilkin şərtlər irəli sürülmüşdü. Azərbaycan tərəfi qısa zaman ərzində mövqeyini çatdırdı. Bu prosesə heç bir qeyd-şərt olmadan başlaya biləcəyimiz ifadə olunmuşdu. Bu, təcrübələrə əsaslanan prosesdir, prosesin başlaması üçün dırnaqarası icadlara ehtiyac yoxdur. Komissiya öz işinə başlamalıdır. 30 il ərzində torpaqları işğal altında saxlayan bir dövlətin delimitasiya prosesi üçün hər hansı şərt irəli sürməsinə nə mənəvi, nə hüquqi, nə də siyasi haqqı var. Ermənistan tərəfinin bunu tez bir zamanda anlayacağına ümid edirik. Bu, region üçün faydalı olar".

Nazir deyib ki, macar nazirlə görüşdə ikitərəfli müstəvidə və çoxtərəfli platformalarda inkişaf edən əlaqələr müzakirə olunub. Onun sözlərinə görə, iki ölkə arasında yüksək səviyyəli dialoq var: "Görüşdə strateji tərəfdaşlıq haqqında müzakirə aparılıb. İqtisadi sahədə əməkdaşlıq hər iki ölkə üçün uğurlu olub. Ümid edirik ki, 2022-ci ildə iqtisadiyyatlarımız inkişaf edəcək və iqtisadi neft hasilatında iştirak edir. Azərbaycanda iqtisadi əməkdaşlıqda uğurlar qazanırıq.

Bunu Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Bakıda azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında bildirib. Siyarto Bakıya Macarıstandan 24 şirkətin nümayəndəsi ilə birlikdə gəldiyini, Azərbaycan iqtisadiyyatının fərqli sahələrinə investisiya yatırmağa hazır olduqlarını söyləyib: "Biz Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləmişik. Qarabağın bərpasına uğurlu töhfə vermək istəyirik. İşğaldan əziyyət çəkmiş insanların həyatlarını yaxşılaşdırmaq və bu istiqamətdə Azərbaycan şirkətləri ilə birgə əməkdaşlığımız daha da genişlənəcək. Enerji sahəsində də uğurlu əməkdaşlığımız var. Azərbaycan enerji tərəfdaşlığında Avropa ölkələri üçün etibarlı ölkə rolunu oynayıb".

O diqqətə çatdırıb ki, Macarıstanın MOL şirkəti investisiya layihələrində iştirak edib: "Macarıstanın Azərbaycana marağı var. Cənubi Qaz dəhlizinin iclaslarında iştirak edir. Sabah da iştirak edəcəklər. Azərbaycan yeni reallıqlar fonunda Avropanın etibarlı qaz təchizatçısı rolunda çıxış edəcək və inanırıq ki, Macarıstan da bundan yararlanacaq".

Əməkdaşlığımızın güclü əsasları var. Çətinliklərə baxmayaraq, ticarət dövriyyəsi artır, macar investorlar Azərbaycan bazarında daha çox rol oynayır. Macarıstanın MOL şirkəti Xəzər akvatoriyasında bu ərazilərdə işləmək istəyirik. Bura mənimlə Macarıstandan 24 şirkətin nümayəndəsi gəlib. Biz şəhərlərin, ərazilərin infrastrukturunun qurulması prosesində iştiraka hazırıq. Alternativ enerji mənbələrindən istifadə üçün lazımi avadanlıqları istehsal edən müəssisələrin qurulmasına, mədəni və dini abidələrin bərpasında iştiraka hazırıq. Macarıstan bankı investorlarımız üçün kredit xətti açıb, lazım gəlsə, bu maliyyə genişləndiriləcək. Qaz təchizatı ilə bağlı da danışıqlar aparırıq. Cənub Qaz Dəhlizi ilə bağlı marağımızı ifadə etmişik. Biz enerjinin diversifikasiyasında maraqlıyıq. Texniki danışıqlar artıq başlayıb. Bu gün kənd təsərrüfatı, su təsərrüfatı sahəsində sənədlər imzaladıq".

***Z.Məmmədli***

# Azərbaycan səfiri Pakistan Hərbi Dəniz Qüvvələri komandanı ilə görüşüb

***Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov Pakistan Hərbi Dəniz Qüvvələri komandanı admiral Məhəmməd Amcad Xan Niazi ilə görüşüb.***

Bu barədə "Unikal"a Azərbaycanın Pakistandakı səfiriyindən məlumat verilib.

Səfir, admiral Amcad Xan Niaziyə səmimi qəbula görə öz təşəkkürünü bildirib və ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığa xüsusi önəm verildiyini vurğulayıb.

Səfir, Pakistan və Azərbaycan arasındakı münasibətlərin tarixi və mədəni bağlara dayandığı üçün daima güclü olduğunu və hər iki ölkənin bir-birinə daim dəstək verdiyini qeyd edib. O, 44 günlük Vətən müharibəsi dönəmində Pakistan dövlətinin və xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyin Azərbaycan dövləti və xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb və bunun göstəricisi kimi müharibənin gedişi zamanı Azərbaycan, Pakistan və Türkiyə bayraqlarının Azərbaycanın şəhər və kəndlərində Azərbaycan xalqı tərəfindən yan-yana dalğalandırıldığını qeyd edib.

Səfir Pakistan Hərbi Dəniz Qüvvələrinin hərbi təhsil müəssisələrində Azərbaycan Hərbi Dəniz Qüvvələri mənsublarına müxtəlif təhsil proqramları təqdim olunduğu üçün öz təşəkkürünü bildirib və bu əməkdaşlığın Azərbaycan tərəfindən təqdir olunduğunu diqqətə çatdırıb.

Admiral Amcad Xan Niazi ölkələrimizin bir-birinə göstərdiyi dəstəyin xalqlarımızın tarixi köklərindən, dini və mədəni əlaqələrindən qaynaqlandığını xüsusi vurğulayıb. O, Pakistan Hərbi Dəniz Qüvvələrinin mövcud təhsil, təlim və hərbi-texniki imkanlarının Azərbaycan Hərbi Dəniz Qüvvələri üçün daim açıq olduğunu diqqətə çatdırıb.

Səfir ölkələrimizin Hərbi Dəniz Qüvvələri arasında yeni əməkdaşlıq sahələrinin müəyyən olunması və daha da inkişaf etdirilməsi üçün yüksək səviyyəli səfərlərin önəmli olduğunu vurğulayıb və cari ildə də bu istiqamətdə müvafiq fəaliyyətin həyata keçiriləcəyini qeyd edib.

# Səlim Müslümovun həbs müddəti uzadılıb

***Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə həbs qətimkan tədbirinin müddəti uzadılıb.***

Səbail Rayon Məhkəməsində həbs qətimkan tədbirinin uzadılması ilə bağlı bağlı istintaq orqanının təqdimatına baxılıb və həbs müddəti daha 1 ay artırılıb.

Qeyd edək ki, S.Müslümov Azərbaycan əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar DTX-də araşdırılıb.

Toplanılan materiallar əsasında başlanılan cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitləri bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub.

Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəllənin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

## Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərinin zirvəsidir - Yavuz Səlim Kıran



***Türkiyə və Azərbaycan arasında ikitərəfli münasibətlərə dair təxminən 302 saziş imzalanıb. Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə bu sazişlərin, münasibətlərin zirvəsidir.***

”Unikal” xəbər verir ki, bu barədə Türkiyə xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran Ankarada keçirilən “Azərbaycan-Türkiyə münasibətlərinin bərpasının 30-cu ildönümü” adlı konfransda bildirib.

O, iki ölkənin bununla kifayətlənmədiyini, Türkiyə və Azərbaycanın Cənubi Qafqazın sülh regionuna çevrilməsi üçün əməkdaşlığa töhfə verdiklərini vurğulayıb.

“Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün bir çox cəhdlər oldu. Problemlərimizi başqalarının həll edəcəyini gözləyirdik. Türkiyə və Azərbaycan olaraq hər zaman olduğu kimi, beynəlxalq hüquqa inandığımıza görə gözləyirdik. Amma təəssüf ki, hər hansı bir səmimiyyət və iradə ortaya qoyulmadığı üçün işğal illər ərzində davam etdi”, - nazir müavini bildirib.

XİN başçısının müavini əlavə edib ki, işğala Azərbaycan Prezidenti İlham Əliyevinin rəhbərlik etdiyi Ordu 44 gün ərzində son qoyub.

## Türkiyə və Ukrayna ticarət müqaviləsi imzaladı



***Türkiyə və Ukrayna arasında sərbəst ticarət müqaviləsi imzalanıb.***

”Unikal” xəbər verir ki, müqavilə Ukrayna Prezidenti Vladimir Zelenski ilə Kiyevdə səfərdə olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanıb.

## Hikmət Hacıyev Aİ komissarı ilə görüşüb



***Avropa İttifaqının (Aİ) Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.***

”Unikal” xəbər verir ki, Oliver Varhelyi bu barədə ”Twitter”də bildirib.

“Cənub Qaz Dəhlizi Məşvərət Şurası iclası ərəfəsində biz Aİ-Azərbaycan enerji tərəfdaşlığından və enerji təhlükəsizliyinin əhəmiyyətindən danışdıq. Həmçinin Aİ-nin İqtisadi və İnvestisiya Planı çərçivəsində tərəfdaşlığımızın gücləndirilməsini müzakirə etdik”, - Aİ Komissarı qeyd edib. Görüşdə Cənubi Qafqaz və Aİ-nin bu regiona dəstəyi də müzakirə olunub.

# XİN-dən CHP-li millət vəkilinin açıqlamasına reaksiya

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyə Respublikasının Cümhuriyyət Xalq Partiyasından (CHP) olan millət vəkili Aykut Ərdoğdunun ittihamedici açıqlamasının şərh edilməsi ilə bağlı yerli KİV-in sualını cavablandırıb.***

XİN-dən “Unikal” a verilən xəbərə görə, Abdullayeva Türkiyə Böyük Millət Məclisinin Cümhuriyyət Xalq Partiyasından olan millət vəkili Aykut Ərdoğdunun Azərbaycan və Türkiyə arasında enerji sahəsində əlaqələrlə bağlı, habelə iki ölkənin dövlət başçısına qarşı irəli sürdüyü tamamilə əsassız ittihamları ilə bağlı aşağıdakıları bildirib:

”İlk növbədə vurğulamaq istərdik ki, Azərbaycan ilə qardaş Türkiyə arasında bütün sahələrdə olduğu kimi, enerji sahəsində də açıq, tamamilə şəffaf, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan və Türkiyənin möhkəm işbirliyi, dostluğu və qardaşlığı əsasında, iki ölkə liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində reallaşan nəhəng və strateji Trans-Anadolu qaz kəməri layihəsi (TANAP) enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir.

TANAP layihəsinin toplam investisiya məbləği 6.3 milyard ABŞ dollarıdır. Layihənin həyata keçirilməsi zamanı təmin edilən məşğulluq sayı pik vaxtlarda 15.000 nəfərə çatmış və investisiya məbləğinin böyük hissəsi yerli istehsalçılar hesabına təmin edilmişdir. Nəzərə alınmalıdır ki, TANAP layihəsi vasitəsilə Türkiyə sənayesinə və müvafiq sektorlara böyük əlavə dəyər təmin edilmişdir. Xüsusilə vurğulamaq istərdik ki, bu layihədə qəbul olunan tariflər bütün beynəlxalq standartlara tam cavab verir. Türkiyə tərəfi eyni zamanda layihədə BOTAŞ şirkəti vasitəsilə 30% ortaq olduğu üçün eyni miqdarda tranzit gəlirləri də qazanmaqdadır.



Qeyd etmək istərdik ki, Türkiyə Azərbaycan ilə yanaşı, Rusiya, İran, Qətər, Nigeriya və digər ölkələrdən təbii qaz idxal etməkdədir. Bu istehsalçılar arasında Azərbaycan tərəfindən təmin edilən təbii qazın qiyməti ən aşağı səviyyədədir. Burada vacib digər bir məqam ondan ibarətdir ki, təbii qaz qiymətlərinin ən pik həddə olduğu və qaz çatışmazlığının artdığı zamanda TANAP layihəsinin mövcudluğu, Türkiyə üçün həm iqtisadi, həm də sosial müstəvidə yeni imkanlar yaratmaqla yanaşı, Türkiyənin enerji təhlükəsizliyinin davamlılığını təmin edir.

Türkiyənin ən iri müəssisələrindən olan “Petkim”ə gəldikdə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətininin Türkiyə Respublikasında olan törəmə şirkəti SOCAR Türkiyə 2008-ci ildə 2 milyard 40 milyon ABŞ dolları investisiya ilə tam açıq və şəffaf tenderin qalibi olmuşdur. Növbəti illərdə “Petkim”ə qoyulan əlavə investisiyaların ümumi məbləği 1.2 milyard dollara çatmışdır.

Eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkətinin çoxmilyardlıq investisiyası əsasında “STAR” Neft emalı zavodunun tikintisi və onun “Petkim” neft-kimya zavodu ilə inteqrasiyası nəticəsində Türkiyə Respublikası ərazisində əlavə 2 milyard ABŞ dolları dəyərində məhsulların istehsalına şərait yaradıb. Belə ki, Türkiyədə əvvəllər həmin məhsulların xaricidən alınmasına 2 milyard ABŞ dolları xərclənirdi.

Azərbaycan və Türkiyə Respublikası arasında olan dostluq və qardaşlıq münasibətləri, ölkə rəhbərlərinin birgə səyləri nəticəsində yaradılan bu imkanlar bugünədək Azərbaycan tərəfindən Türkiyə ərazisinə 19 milyard ABŞ dollarından artıq investisiya qoyulmasına imkan yaratmışdır.

CHP millət vəkilinin Azərbaycan və Türkiyə liderlərinin guya ki, “qarışıq və qaranlıq əlaqələri” kimi təqdim etdiyi tamamilə əsassız ittihamları rədd edirik. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın münasibətləri iki dövlətin milli maraqlarına əsaslanan qardaşlıq münasibətləridir. Məhz bu münasibətlər nəticəsində iki ölkə arasındakı strateji tərəfdaşlıq daha da möhkəmlənib, tarixi Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə ucalıb, iki xalq arasındakı qardaşlıq bağları heç bir zaman olmadığı qədər güclənib.

Əfsuslar olsun ki, bu ilk dəfə deyil ki, CHP nümayəndəsi anti-Azərbaycan mövqeyindən çıxış edərək, əsassız iddialarla aranı qarışdırmağa çalışır. Lakin bu cəhdlərin heç bir perspektivi yoxdur, çünki Türkiyə-Azərbaycan münasibətlərinə hər hansı ermənipərəst siyasətçilərin manipulyasiyaları kölgə sala bilməz.

Azərbaycan tərəfi CHP millət vəkili tərəfindən irəli sürülən əsassız ittihamlara görə üzrxahlıq gözləyir. Əks təqdirdə biz, məsələnin hüquqi müstəvidə qaldırılması hüququnu özümüzdə saxlayırıq”.

# Ukrayna XİN-ə Xocalı soyqırımının tanınması ilə bağlı müraciət olunub

***Ukrayna Xarici İşlər Nazirliyinə Xocalı soyqırımının tanınması ilə bağlı prosedura başlamaq barədə müraciət olunub.***

Diasporla İş üzrə Dövlət Komitəsindən ”Unikal”a verilən məlumata görə, müraciəti Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Lyudmila Marçenko imzalayıb.

Müraciətdə bildirilir ki, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, “Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu”nun sədri Hikmət Cavadovun imzası ilə Ali Radaya daxil olan məktubda Xocalı soyqırımının tanınması məsələsi qaldırılıb.



Deputat qeyd edib ki, 30 il əvvəl Xocalıda baş verən hadisələr açıq-aydın soyqırımı əlamətlərini daşıyır. Bununla əlaqədar artıq bir çox ölkənin qanunverici orqanı və beynəlxalq təşkilatlar tərəfindən Xocalı soyqırımının bəşəriyyətə qarşı cinayət olduğu təsdiqlənib. “Xocalı faciəsinin soyqırımı kimi tanınması tarixi ədalətin bərpasına, Ukrayna və Azərbaycan arasında olan dostluq münasibətlərinə töhfə verəcək” - deyə müraciətdə bildirilir.

Lyudmila Marçenko öz deputat səlahiyyətlərindən istifadə edərək, xarici işlər naziri Dmitri Kulebadan soyqırımının tanınması proseduruna başlamağı xahiş edib.

Xatırladaq ki, ötən ilin oktyabr ayında Milli Məclisin və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupu üzvlərinin Azərbaycana səfəri baş tutub. Səfər çərçivəsində Gəncə və Ağdama da gedən ukraynalı deputatlar səfərin nəticələrinə dair yaydıqları birgə bəyanatda erməni terrorunun nəticələrindən dəhşətə gəldiklərini, dünyanın bu terrorlara biganə qalmamalı olduğunu bildiriblər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2500

# Sahibə Qafarova Latviyanın Baş naziri ilə görüşdü



*Milli Məclisin sədri Sahibə Qafarova Latviya Respublikasına rəsmi səfər çərçivəsində bu ölkənin Baş naziri Arturs Krişyanis Karinş ilə görüşüb.*

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən xəbərə görə, Baş nazir Azərbaycan nümayəndə heyətini salamlayaraq, qarşılıqlı səfərlərin əhəmiyyətli olduğunu vurğulayıb və əmin olduğunu bildirib ki, bu səfər ölkələrimiz arasındakı münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Latviyanın Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verdiyini bildirən Baş nazir 15 il əvvəl iqtisadiyyat naziri kimi, Azərbaycana səfər etdiyini xatırladıb. O, ötən dövr ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini və bu gün geniş iqtisadi potensiala malik olduğunu vurğulayıb. Arturs Krişyanis Karinş deyib ki, bu gün ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir. O, Latviyanın Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəklədiyini, bundan sonra da mövqeyinə sadiq qalacağını qeyd edib.

Baş nazir Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığını, Avropanın enerji təhlükəsizliyinə töhfələrini, COVİD-19 qlobal pandemiyasına qarşı mübarizədəki rolunu yüksək qiymətləndirib, iki ölkə arasında iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi üçün yaxşı imkanların olduğunu söyləyib. Səmimi qəbul və ölkəmiz haqqında xoş sözlərə görə təşəkkür edən Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın parlament sədri kimi Latviyaya ilk səfərindən məmnunluğunu bildirib və bu səfərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Milli Məclisin sədri Azərbaycan və Latviyanın dost və strateji tərəfdaş ölkələr olduğunu vurğulayıb, ölkəmizin ərazi bütövlüyünə dəstəyini yüksək qiymətləndirib. Spiker iki ölkə arasında münasibətlərin bir çox sahələri əhatə etdiyini söyləyib, xüsusilə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş potensialın olduğunu deyib. Bu gün Azərbaycanda Latviya investisiyaları üçün yaxşı imkanların olduğunu bildirən Milli Məclisin sədri Azərbaycanda həyata keçirilən layihələr, o cümlədən, Ələt iqtisadi zonası, işğaldan azad edilmiş ərazilərdə yaradılan yaşıl enerji zonası, sənaye, aqroparklar haqqında məlumat verib. Latviya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edib. Həmçinin, hökumətlərarası komissiyanın fəaliyyətinin və biznes forumların davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Sahibə Qafarova Latviyanın Avropa İttifaqına üzvlüyünü nəzərə alaraq, Azərbaycan ilə Aİ arasında əlaqələr haqqında da məlumat verib.

Görüşdə 44 günlük Vətən Müharibəsində Azərbaycanın qazandığı tarixi qələbə haqqında da danışan Milli Məclisin sədri bildirib ki, Azərbaycan bu qələbə sayəsində öz ərazilərini 30 il davam edən erməni işğalından azad edərək ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini öz gücü hesabına yerinə yetirib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil. 10 noyabr 2020-ci il tarixdə imzanalanmış üçtərəfli bəyanat münaqişəyə son qoyub və 44 günlük Vətən müharibəsi regionda yeni reallıqlar yaradıb. İndi Azərbaycan öz imkanları hesabına işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirir. Azərbaycan artıq Ermənistana bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanması, regionda bütün kommunikasiyaların bərpası və münasibətlərin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması ilə bağlı bir sıra təkliflər verib. Spiker deyib ki, Azərbaycan müharibədən yox, sülh və gələcək haqqında danışmaq istəyir. O, ümid etdiyini bildirib ki, Ermənistan regionda yeni reallığı dərk edəcək, sülh və sabitliyin bərqərar olması istiqamətində bizim yanaşmamızı dəstəkləyəcək.

Görüşdə Milli Məclisin sədri həmçinin, regionda nəqliyyat və yeni kommunikasiya imkanları haqqında məlumat verib. Zəngəzur dəhlizinin strateji əhəmiyyəti barədə danışıb. Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***Hüseyn İsgəndərov***

# Dövlət Xidmətinin sabiq rəisinin Türkiyədə mülkləri üzə çıxıb - SİYAHI

*Mədəniyyət Nazirliyinin tabeliyində olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sabiq rəisi Zakir Sultanov 2016-cı ildən Türkiyə vətəndaşlığını alıb.*

APA-nın əldə etdiyi məlumata görə, Zakir Sultanov barəsindəki cinayət işində onun Türkiyədə bir çox mülkləri olduğu ortaya çıxıb.

Onun İstanbul şəhəri, Şişli rayonu, Teşvikiye küçəsində yerləşən mağazası var, həmin mağaza hazırda icarədədir.

İstanbul şəhəri, Beşiktaş rayonu, Ortaköy küçəsində yerləşən mənzili isə artıq sökülüb. Eyni zamanda, İstanbul şəhəri, Şişli rayonu, Şişli küçəsində yerləşən mağazası da var, hazırda həyat yoldaşının yaxın qohumu tərəfindən şirniyyat evi kimi işlədilir.



Bundan başqa, İstanbul şəhəri, Bakırköy rayonu, Osmaniye küçəsində yerləşən mağazası da olub, həmin mağaza isə təxminən 2 il bundan qabaq onun tərəfindən satılıb.

Qeyd edilənlərlə yanaşı, İstanbul şəhəri, Şişli rayonu, Teşvikiye küçəsində mənzili, İzmir şəhəri, Çeşme rayonu, Alaçatı küçəsində bağ evi var.

İstanbul şəhəri, Şişli rayonu, Teşvikiye küçəsində yerləşən mağazadan başqa qalan əmlaklar anası tərəfindən alınaraq ona bağışlanılıb.

Z. Sultanov 2016-cı ildə Türkiyədə "Akbank"dan 7 600 000 türk lirəsi kredit götürüb və hazırda həmin kredit ödənilməmiş qalır.

Qeyd edək ki, Zakir Sultanov Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat zamanı sabiq nazir müavini Rafiq Bayramovla birgə saxlanılıb. Daha sonra onlar barəsində başlanan cinayət işi ayrı icraata götürülüb. Zakir Sultanova Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham verilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən Zakir Sultanov 11 il müddətinə azadlıqdan məhrum edilib.



# Agentlik bu yollarda nöqsanlar aşkarladı

***Bakı Nəqliyyat Agentliyi (BNA) paytaxt ərazisində yol hərəkətinin təkmilləşdirilməsi, nəqliyyat şəraitinin yaxşılaşdırılması, sürücülərin və piyadaların təhlükəsizliyinin təmin edilməsi istiqamətində işlərini davam etdirir. Mövcud problemlərin aradan qaldırılması üçün mütəmadi olaraq layihələr hazırlanaraq müvafiq tədbirlər görülür.***

BNA-dan "Unikal"a verilən məlumata görə, bu istiqamətdə həyata keçirilmiş layihələrdən biri də Yusif Vəzir Çəmənzəminli ilə Səməd Vurğun küçələrinin kəsişməsini, eləcə də Səməd Vurğun ilə Ak.Həsən Əliyev küçələrinin kəsişməsini əhatə edir.

Qeyd olunan məsələ ilə bağlı Agentliyin mütəxəssisləri tərəfindən hər iki yol kəsişməsinə baxış keçirilmiş, ümumi nəqliyyat şəraiti təhlil edilmiş, sutkanın pik saatlarında nəqliyyat vasitələrinin say tərkibi öyrənilmiş, sadalanan problemlər aşkar edilib:

- S.Vurğun və Ak.H.Əliyev küçələrinin kəsişməsində sola dönmə manevrinə icazə verilmədiyindən Ak.H.Əliyev küçəsinə istiqamətlənmək istəyən nəqliyyat vasitələrinin S.Vurğun ulə Y.V.Çəmənzəminli küçəsindəki mövcud geriyə dönmə yerindən istifadə etməsi;
- Konflikt nöqtələrinin mövcudluğu və sözügüdən yol kəsişməsinin həndəsi ölçülərinin xüsusilə uzunölçülü nəqliyyat vasitələrinin birbaşa geriyə dönmə manevrini yerinə yetirmələrinə imkan verməməsi səbəbindən yolayırıcında sıxlıq hallarının yaranması;
- Yol nişanlarının çatışmazlığı;
- Nəqliyyat vasitələrinin qadağan olunmuş yerlərdə park edilməsi;
- Piyada təhlükəsizliyinin və rahatlığının təmin edilməməsi.

Layihə çaçivəsində:

- Y.V.Çəmənzəminli və Səməd Vurğun küçələrinin kəsişməsində artan nəqliyyat intensivliyi və kəsişmədə olan ümumi nəqliyyat şəraiti nəzərə alınaraq, svetofor obyektləri quraşdırılmış, bununla da, konflikt nöqtələri aradan qaldırılaraq hərəkət növbəliliyi təmin edilib;
- S.Vurğun və Ak.H.Əliyev küçələrinin kəsişməsindən birbaşa sola icazə verilərək nəqliyyat vasitələrinin Y.V.Çəmənzəminli küçəsinə istiqamətlənib əlavə məsafə və zaman sərf etməsinin qarşısı alınmış, eləcə də Y.V.Çəmənzəminli küçəsindəki mövcud geriyə dönmə yerində nəqliyyat sıxlığı azaldılıb.
- Həmçinin hər iki kəsişmədə müvafiq yol nişanları quraşdırılmış, kəsişmələrdə və kəsişmələrin yaxınlığında xaotik parklanmaya nəzarət gücləndirilib.

# “Korrupsioner məmurlar kənarda qalır, hamı deputatın üstünə düşür”

## Tahir Kərimli: “Bir sıra hökumət nümayəndələri, icra, məhkəmə orqanları deputatdan qalxan kimi istifadə edirlər ki, zərbə onlara deyil, deputata dəysin”

***Vəhdət Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Tahir Kərimli ”Unikal” qəzetinə müsahibə verib. Millət vəkili ilə söhbətə ”Sosial şəbəkələr haqqında” qanun layihəsi ilə bağlı sualla başladıq.***

***-Bir çox deputat həmkarınız ”Sosial şəbəkələr haqqında” qanun layihəsinin hazırlanmasını təklif edir. Belə bir qanun layihəsinin hazırlanması gözlənilirmi?***

-Qanun o vaxt yaranır ki, yeni ictimai münasibətlər yaranır. Bu ictimai münasibətləri tənzimləmək ortaya çıxır. Bu baxımdan sosial şəbəkələr son dövrlər həyatımıza daxil olmuş çox ciddi ictimai münasibətlər yaradıb. Ona görə də bunun qanunla tənzimlənməsinə ehtiyac var. Sosial şəbəkələr məlumat baxımından faydalıdırsa, operativliyi artırırsa, insanlar öz fikirlərini ifadə edirsə, bunun neqativ tərəfləri də vardır. Təbii ki, sosial şəbəkələrin müsbət cəhətləri təqdirəlayiqdir. Neqativ tərəfləri isə ondan ibarətdir ki, burada çox asanlıqla insanları təhqir etmək, böhtan atmaq olur. Onlar da cəzasız qalırlar. Çünki kimsə, hansısa bir mənbəyi bilinən və yaxud bilinməyən məlumat yayır, insanları, vəzifəli şəxsləri və digərlərini açıq şəkildə təhqir edir. Onda sual olunur, nə üçün adi vətəndaş kimisə təhqir edəndə məhkəmə məsuliyyətinə cəlb oluna bilir, ancaq sosial şəbəkələrdə daha geniş, çoxlarının eşitdiyi tərzdə pis formada təhqir olunduğu halda, məhkəməyə müraciət edə bilməsin və yaxud nə üçün həmin şəxs məsuliyyətə cəlb olunmasın?

Məlumdur ki, sosial şəbəkələrin mərkəzi xarici dövlətlərdə, əsasən ABŞ-da yerləşir. Qlobal miqyasda buna təsir etmək çox çətin olur. Amma dövlətin imkanları var. Bir sıra dövlətlər özünün təhlükəsizlik sistemini təmin etmək üçün sosial şəbəkələrə müəyyən məhdudiyyətlər tətbiq edirlər. Dövlətin maraqlarına, ictimai-siyasi vəziyyətə mənfi təsir edən hallar olanda məhdudlaşdırıcı tədbirlər həyata keçirə bilirlər. O nöqteyi-nəzərdən sosial şəbəkədə təhqir olunan insanlar məhkəməyə müraciət edə bilər. Məhkəmə ona baxmağa səlahiyyətlidir. Azərbaycan qanunları buna imkan verir. Bu yaxınlarda ”Tik-tok”la bağlı bir neçə şəxs məsuliyyətə cəlb olunub. Çünki onlar qızışdırıcı məlumatlar yayırdılar. Hesab edirəm ki, aidiyyatı dövlət orqanları buna nəzarəti gücləndirsinlər.

Həmçinin, qanunvericilikdə bu normalar tənzimlənməlidir. Tək Azərbaycanda deyil, digər dövlətlərin əksəriyyətində sosial şəbəkələrin media olub-olmaması sual altındadır. Yəni, bunu mətbuat saymaq olarmı-olmazmı? Sosial şəbəkələr kütləvilik nöqteyi-nəzərdən çox ciddi bir platformadır. İstər çap mediası, istərsə də onlayn media olsun, o parametrlərə uyğun gəlmir. Ona görə də qanunvericilikdə sosial medianın özünün statusu müəyyən olunmalıdır.

***-Tez-tez çıxışlarınızda qeyd edirsiz ki, sosial şəbəkələrdə təhqirlərə məruz qalırsız. Bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etmisinizmi?***

-Bu məsələdən qaçmışam. Uşaqlıqdan elə böyümüşük ki, tərbiyəmiz təhqir işlətməyə yol verməyib. Qulağımız eşitməyən sözləri, gözlərimiz sosial şəbəkədən oxuyur. Dəhşətə gəlirəm, bu insanı sarsıdır. Baxırsan ki, bunlar necə bu qədər biədəb söz danışırlar. Təhqir etmədən də kəskin sözlər demək olar ki, daha təsirli olsun. Digər tərəfdən şərh yazanlar 1-2 nəfər deyil. Bir də görürsən 1000 nəfər şərh yazır. Bunların hansı birindən şikayət edəsən? Bəzən yalan və ədəbsiz məlumatlar olur, onları ictimailəşdirmək istəmirəm.

***-Özünüz də müşahidə edirsiz ki, bu məsələ tək sizinlə bağlı deyil. Belə ki, digər deputat həmkarlarınız haqqında da tənqid və təhqirlər olur. Sizcə, deputatların belə aqressiv münasibətlə qarşılanmasının səbəbi nədir?***

-Hesab edirəm ki, bunun bir neçə səbəbi var. Birinci səbəbi obyektiv saymaq olar. O mənada ki, deputat seçicinin nümayəndəsidir. Vətəndaş deputatdan umur ki, hər şeyə nəzarət etsin. Deputat onun istəklərini reallaşdıra bilmirsə, hökumətə təsir edə bilmirsə, hansısa qanunun qəbul olunmasını bacarmırsa, o zaman fikir yaranır ki, bütün bunlara görə deputat təqsirkardır. Digər bir məsələ isə subyektivdir. Məsələn, deputat heç də bəzi özəl və dövlət orqanları var ki, onlardan çox əmək haqqı almır. Və yaxud onlardan yaxşı dolanışığı yoxdur. Belə deputat varsa, onun gəliri deputatlıq fəaliyyətinə görə deyil. Bəlkə başqa bir biznes sahəsi var. Təəssüf edirəm ki, bir sıra hökumət nümayəndələri, icra, məhkəmə orqanları deputatdan qalxan kimi istifadə edirlər ki, zərbə onlara deyil, deputata dəysin. Halbuki, min və milyon dəfə artıq gəlirləri olan, özünü cəmiyyətdə doğru aparmayan, korrupsiyaya uğramış şəxslər tənqiddən kənarda qalır, hamı deputatın üstünə düşür. Qanunlar kamil işlənməlidir. Növbədənkənar seçkilərin tələblərindən biri də bundan ibarət oldu ki, deputatlıq fəaliyyəti ilə bir araya gəlməyən insanlar deputat olmasınlar. Bu məsələlər bir az da dərinləşməlidir. Deputat yalnız qanunvericilik hakimiyyəti ilə məşğul olsun. Yoxsa, deputat mən bu işimi burda tez bitirim, başqa biznes sahəm var, gedib onunla məşğul olum düşünməli deyil. Belə məsələ ortaya çıxanda təbii ki, deputata tuşlanan oxlar obyektiv atılır.

***-Son zamanlar parlamentdə yerlərin sayının artırılması ilə bağlı fikirlər səsləndirilir. Sizcə Milli Məclisdə deputatların sayının artırılmasına ehtiyac varmı?***

-Gələcəkdə siyasi partiyaların inkişaf etdirilməsi və daha çox təmsilçilik nöqteyi-nəzərindən proporsional seçkini bərpa etmək olar. Yerləri 250-ə qədər artırmaq olar.Gələcəkdə bu məsələyə baxıla bilər.

***-Məlum olduğu kimi, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi hazırlanır. Sizin partiya olaraq hansı təklifləriniz var? Hansı dəyişikliklər və yenilikləri təklif etmisiniz?***

-Partiyamız adından Prezident Administrasiyasına təkliflərimizi vermişik. Bununla bağlı müxtəlif fikirlər səsləndirilir, başqa dövlətlərlə müqayisə olunur. Məsələn, ABŞ-da açıq tipli partiyadır. Orada üzvlük məcburi deyil. Partiyanın gücü tərəfdarlarının sayı ilə müəyyən olunur. Avropada elə dövlətlər var ki, 50,100 və bəzən 500 nəfər üzvlə də partiyalar təşkil etmək olar. Partiyaların cəmiyyətdə yeri onların demokratik seçkidə iştirakı ilə müəyyən olunmalıdır. Belə ki, hər partiya seçkilərdə hansı dərəcədə özünü göstərə bilir, qalib olur, dövlət yardımını da ona uyğun olaraq obyektiv almalıdır. Yoxsa, bizdə 50-60 partiya var. Biz partiya sədriyik, bəzən heç o partiyaların nə özlərini, nə də liderlərini tapa bilmirik. Belə vəziyyət bir növ mexaniklik yaradır. Azərbaycanda 15 partiya fəaliyyət göstərsə, yaxşı olar.



***-Son illər ölkəmizdə narkotiklərə qarşı mübarizə gücləndirilib. Hər həftə narkotiklə bağlı nə qədər şəxsin saxlanıldığını görürük. Narkotikin satışı ilə məşğul olan şəxslərlə bağlı cəzaların sərtləşdirilməsi gözlənilirmi?***

-Son dövrlər həyatımıza süni narkotiklər daxil olub. Süni düzəldilən narkotiklər təbii narkotikləri dəfələrlə sıxışdırır ki, artım da bununla bağlıdır. Hətta ev şəraitində süni narkotik vasitələr yaradırlar. Cəmiyyətdə müsbət qüvvələr olduğu kimi, mənfi qüvvələr də var. Zərərli işlərlə məşğul olaraq qazanclarını artırmaq istəyənlər olur. Bunlardan ən narahatedicisi də narkotiklə bağlıdır. Belə ki, xammal kimi xaricdən gətirirlər, ölkənin daxilində istehsal edirlər. Çox geniş yayılıb, mübarizə aparmaq da çətindir. Tək dövlət orqanları deyil, cəmiyyət də buna qarşı çox ciddi mübarizə aparmalıdır. Cəzanın sərtləşdirilməsi əsas çıxış yolu deyil. Cinayəti yaradan səbəb, şərait aradan qaldırılmalı, diqqət buna yönəldilməlidir.

Şimali Avropa ölkələrində Cinayət Məcəlləsində olan maddələrin 60 faizdən yuxarısı tətbiq olunmur, həmin cinayəti edən yoxdur. Ona görə ki, cinayətin səbəb və şəraitinə qarşı ciddi mübarizə aparılır. Ölkəmizdə də diqqəti əsasən buna yönəltməliyik.

***Anar Kəlbiyev***

# Cavanşir Feyziyevin milyonlarla manatlıq feyziyablığı...

## Biznesmen-deputatın adı ətrafında qalmaqal bitmir: London məhkəməsinin qərarı Bakıda necə "yuyuldu"?



***Yola salmaq üzrə olduğumuz həftə ilginc hadisə yaşandı: Böyük Britaniyanın Milli Cinayət Agentliyinin araşdırmasından sonra Azərbaycan parlamentinin üzvü Cavanşir Feyziyevin yaxınlarına məxsus bank hesabındakı milyonlarla funt-sterlinq müsadirə edildi!***

Bu barədə yayılan məlumatda deyilirdi ki, Britaniyalı maliyyə müstəntiqləri Azərbaycan parlamentinin deputatı, Böyük Britaniya-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyevin ailə üzvlərinə məxsus Böyük Britaniyada 5,6 milyon funt-sterlinq məbləğində bank hesablarının müsadirə edilməsi haqqında sərəncam imzalayıblar.

Müsadirə olunan hesablar deputatın həyat yoldaşı Pərvanə Feyziyeva, oğlu Orxan Cavanşir və qardaşı oğlu Elman Cavanşirə aiddir. Müstəntiqlər bu hesablardakı vəsaitlərin çirkli pullarla əldə olunduğunu bildirib.

Məlumata görə, Cavanşir Feyziyevin yaxınlarına aid dondurulmuş hesablarda 15,3 milyon funt-sterlinq olub. Bu məbləğin 5,630,994,19 funt-sterlinqinin müsadirəsinə göstəriş verilib.

"Westminster Magistrates" Məhkəməsində üç həftəlik mübahisəli müsadirə dinləməsindən sonra, Dairə Hakimi Con Zani bu sənədlərin tamamilə uydurma olduğuna və hesabları təşkil edənlərin əsas çirkli pulların yuyulması fəaliyyətlərini gizlətmək üçün hazırlandığına dair çoxlu sübutların olması ilə bağlı qərar verib.

Əslində bu Azərbaycan ictimaiyyəti üçün yenilik deyil. Deputat Feyziyev və onun ailə üzvlərinin adı ətrafında sözügedən qalmaqal bir müddətdir davam edir. İlginc olan isə Milli Məclisin adıçəkilən üzvünün məlum məhkəmə qərarını Azərbaycanda fərqli cür təqdim etmək cəhdi oldu. Bir növ həmin qərarı "yuyub" təmizə çıxarmağa çalışdılar. Lap elə pul yumaq kimi!

Hətta iş o yerə çatdı ki, C.Feyziyev ölkənin rəsmi xəbər agentliyində Londonda çıxarılan hökmü belə, az qala, "ədalətin bərpası" kimi qələmə verməkdən çəkinməyib. Düzdür, həmin agentlik - "AZƏRTAC" sözügedən xəbəri sonradan sildi, lakin bu acı reallığı dəyişmir.

Feyziyev London məhkəməsinin məlum qərarını fərqli, bu barədə xəbəri isə yanlış təqdim etməklə özü, fəaliyyəti barədə "çirkli pul" şübhələrini aradan qadırmaq istəyir. Əvəzində isə "qaş qayırdığı yerdə vurub göz çıxardı". Günlərdir sosial şəbəkələrdə Cavanşir müəllimlə bağlı çoxsaylı suallar dolaşır.

Həmin suallardan biri belədir: ölkə qanunvericiliyinə əsasən millət vəkillərinə biznes fəaliyyəti ilə məşğul olmaq qadağan edildiyi halda, Cavanşir müəllim ticarətlə bu qədər açıq şəkildə necə məşğul olub, daha doğrusu, məşğul ola bilib?!

İki: Feyziyev "Dumanlı Albion"da, Londonda onun barəsində çıxarılan məlum, qalmaqallı məhkəmə qərarını hansı cürətlə ölkənin rəsmi, dövlət agentliyi vasitəsilə təhrif eləməyə çalışıb, sonradan həmin xəbəri silmək məcburiyyətində qalan "AZƏRTAC"ın nüfuzunu zərbə altında qoymağı gözə alıb?! Daha maraqlısı: C.Feyziyev dövlətin rəsmi informasiya agentliyini öz işləyinə alət eləməyi necə, nə cür bacarıb? ...

Üç: Feyziyev, el təbirincə desək, "həftə səkkiz, mən doqquz" məqalələr yazmaqda, kitablar nəşr eləməkdədir. Milli Məclis üzvlüyü başda olmaqla bir neçə başqa postdan da maaş alan bir adam bu qədər iş-gücün içində o məqalələri, kitabları hansı şəraitdə qələmə alıb? Yoxsa, həmişəki kimi, "işin içində başqa işlər", daha doğrusu, "işləklər"mi var?!

Dörd: Ölkənin dərman biznesində çox qaranlıq əməllər var. Bu sıraya qiymətlər də daxildir, xeyli dərmanın əslində nortmativlərə uyğun olmaması da. Belədə, bir az da dəqiləşdirək, həmin biznesin "öncüllərindən" sayılan C.Feyziyevin bu qədər varlanmasında, məsələn, Azərbaycan vətəndaşlarına müxtəlif dərmanların Türkiyədəkindən, Gürcüstandakından bir neçə dəfə baha satılması hesabına qazanılan pullar nə qədər rol oynayıb?!

Suallar yetərincə çoxdur və onların siyahısnı istənilən qədər uzatmaq da olar. Lakin bir məqam dəyişilməzdir: deyəsən, biz Cavanşir Feyziyevin adı ətrafında qalmaqalların çox şahidi olacaq, onun barəsidə hələ çox xəbərə təəccüblənəcəyik.

Hələlik London məhkəməsi tərəfindən "açılıb sandıq, tökülüb pambıq"...Növbəti dayanacağın hara olacağını bilmirik, bunu zaman göstərəcək.

*Sənan Mirzə*

# Beynəlxalq ekspert AQTİ mütəxəssislərinə təlim keçdi

***Qida texnologiyaları üzrə beynəlxalq ekspert Upali Samarajeewa Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) nəzdində fəaliyyət göstərən laboratoriyaların mütəxəssisləri üçün "Metod validasiya və verifikasiyası" mövzusunda təlim keçib.***

"Unikal" xəbər verir ki, onlayn formatda keçirilən təlimdə Mərkəzi Baytarlıq Laboratoriyasının, Milli Referens Laboratoriyasının, Mərkəzi Fitosanitar Laboratoriyasının, Kompleks Tədqiqatlar Laboratoriyasının əməkdaşları ilə yanaşı, Bakı, Abşeron, Tovuz, Lənkəran və Göygöl Regional Sınaq laboratoriyalarının da mütəxəssisləri iştirak edib.

Beynəlxalq ekspert Upali Samarajeewa təlim iştirakçılarına bu beynəlxalq standartın tətbiqinin təmin edə biləcəyi fayda və üstünlüklərdən geniş bəhs edib. Həmçinin laboratoriyalarda istifadə olunan müxtəlif metodların validasiya və verifikasiyasını müqayisəli şəkildə izah edib. Təlimdə stabillik, dəqiqlik, doğruluq, düzgünlük, ölçmə qeyri-müəyyənliyi, LoQ, LoD, ölçmə aralığı, xəttilik, spesifiklik, seçicilik, paralelizm, geri qazanma kimi parametrlər üzrə nəzəri biliklər aşılanıb, mövzu üzrə interaktiv müzakirələr aparılıb. Sonda isə iştirakçıların təlimi necə mənimsədiyini müəyyən etmək məqsədilə qiymətləndirmə aparılıb.

Qeyd edək ki, "Metod validasiya və verifikasiyası" təlimi sınaq laboratoriyalarının göstərdiyi xidmətlərin keyfiyyətini artırmaq üçün nəzərdə tutulub. Təlimin məqsədi ISO/IEC 17025 standartının tələbinə uyğun olaraq metodun validasiya və verifikasiyasını həyata keçirmək üçün AQTİ mütəxəssislərinin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəldilməsi, bilik və bacarıqlarının artırılmasıdır.

# Mikayıl Cabbarov Vannia Gava ilə görüşüb

***İqtisadiyyat naziri Mikayıl Cabbarov İtaliyanın Ekoloji Keçid Nazirliyinin Dövlət Katibi xanım Vannia Gava ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə nazir özü məlumat verib.

"Ölkələrimiz arasında iqtisadi əlaqələrin, xüsusilə enerji sahəsində əməkdaşlığın uğurlu inkişafını vurğuladıq, tərəfdaşlığımızın gücləndirilməsi barədə fikirlərimizi bölüşdük", - nazir qeyd edib.

# Abdin Fərzəliyev Abşeronun baş memarını işdən çıxardı

***Abşeron Rayon İcra Hakimiyyətində kadr islahatları davam edir.***

"Unikal"ın əldə etdiyi məlumata görə, icra başçısı Abdin Fərzəliyev əmri ilə, rayonun memarlıq və tikinti şöbəsinin müdiri - baş memar vəzifəsini icra edən Şahin Bayramov işdən çıxarılıb.

Hələlik onun yerinə təyinat yoxdur.

*Murad İbrahimli*

# Azərbaycanla Macarıstan arasında əməkdaşlıq sənədləri imzalandı

***Bakıda Azərbaycan Hökuməti və Macarıstan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın 8-ci iclası keçirilib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, iclasda iştirak etmək üçün Komissiyanın Macarıstan tərəfindən həmsədri, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə P.Siyartonun təkbətək görüşündə ikitərəfli əməkdaşlıq məsələlərinə, Komissiyanın iclasının gündəliyinə dair fikir mübadiləsi aparılıb.

İkitərəfli əməkdaşlığa dair sənədlər imzalanıb. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev Macarıstan tərəfi ilə əməkdaşlıq sənədləri imzalayıblar.

Komissiyanın həmsədrləri S.Babayev və P.Siyarto tərəfindən Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın 8-ci iclasının yekunlarına dair Protokol imzalanıb.

Sonra Azərbaycan və Macarıstan arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə S.Babayevin Macarıstan Respublikasının "Ləyaqət" Ordeni ilə təltif edildiyi bildirilib və P.Siyarto ordeni S.Babayevə təqdim edib.

## DGK sədri yeni elektron xidmətini istifadəyə verdi



***Dövlət Gömrük Komitəsinin e-customs.gov.az portalı üzərindən göstərilən elektron xidmətlərə daha biri əlavə edilib.***

"Unikal" xəbər verir ki, bunu DGK sədri Səfər Mehdiyev bildirib.

" "Xidmətlərin statistikası" adlı bölmədə portaldan istifadə haqqında statistik məlumatları əldə etmək olar", - deyə o qeyd edib.

## Nazir bloqerlərlə görüşüb

***Gənclər və idman naziri Fərid Qayıbov bloqerlərlə görüşüb.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, o, görüşdən öncə Binəqədi Gənclər Evinin fəaliyyəti ilə tanış olub, burada yaradılmış şəraitlə maraqlanıb və mərkəzin xidmətindən istifadə edən gənclərlə söhbət edib.

Görüşdə müxtəlif istiqamətlərdə fəaliyyət göstərən 10-dan çox bloqqer iştirak edib. Onların suallarını cavablandıran nazir sosial media mövzusunda mövcud problemlərlə bağlı müzakirələr aparıb.

Maraqlı ideya və təkliflərlə çıxış edən bloqerlər öz fəaliyyətləri barədə danışıb, onları narahat edən məsələlər haqqında məlumat veriblər.

## Türk Ordusu daha 43 terrorçunu məhv edib



***Türkiyə Milli Müdafiə Nazirliyi "Barış pınarı" və "Fırat kalkanı" bölgələrində ümumilikdə 43 terrorçunun zərərsizləşdirildiyini bildirib.***

"Unikal" Anadolu Agentliyinə istinadən xəbər verir ki, təkcə Əl Bab, Dadat, Cibrin və Tall Maliddəki hərbi bazalara hücum edən terrorçulara qarşı əməliyyatlarda ən azı 34 terrorçu məhv edilib.

Türkiyə Milli Müdafiə Nazirliyi terror təşkilatı PKK/YPG-nin sülh və təhlükəsizlik mühitini pozmaq xəyallarını puça çıxarmağa davam edəcəyini bildirib.

"Şəhidlərimizin qanını yerdə qoymadıq, qoymayacağıq!", - deyə nazirlik bəyan edib.

## Həftəsonu temperatur 10 dərəcə enəcək, qar yağacaq

***Bakıda və Abşeron yarımadasında fevralın 5-də arabir yağıntılı olacağı, şimal-qərb küləyinin arabir 15-20 m/s, səhər və gündüz bəzi yerlərdə arabir 23-28 m/s-dək güclənəcəyi gözlənilir.***

Milli Hidrometeorologiya Xidmətindən bildirilib ki, havanın temperaturu ötən günlərlə müqayisədə 8-10° aşağı enəcək.

Azərbaycanın rayonlarında fevralın 4-ü axşam qərb rayonlarından başlayaraq 6-sı səhərədək bəzi rayonlarda hava şəraitinin fasilələrlə yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Yağıntıların əsasən Böyük Qafqazın Quba-Qusar bölgəsində, Şərqi Zəngəzur, Qarabağ və Daşkəsən-Gədəbəy zonasında intensiv olacağı ehtimalı var.

Qərb küləyi arabir 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək.

Əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlama ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-10° aşağı enəcək.

# Ziya Məmmədovun "Hafka" təlaşı...

## Sabiq iş adamının qalmaqallı şəkildə yenidən gündəmə gəlməsi eks-naziri niyə narahat edib?

***Məlum olduğu kimi, ötən həftə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində "Hafka" ləqəbli iş adamı Hafiz Məcid oğlu Məmmədovun rəhbərliyi ilə həyata keçirdiyi müəssisələr üzrə yaranmış külli miqdarda vergi və məcburi dövlət sosial sığorta haqlarının ödəməkdən yayındırılması faktları üzrə cinayət işi başlanıb. Başlanmış cinayət işi çərçivəsində Hafiz Məmmədov istintaqa gəlməkdən boyun qaçırdığından, onun barəsində ittiham elan edilməsi üçün şəxsin tutulması ilə bağlı axtarış haqqında qərar qəbul edilib. Yasamal Rayon Məhkəməsinin qərarı ilə Hafiz Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib.***

Lakin bundan bir neçə gün sonra "Hafka" ev dustaqlığına buraxılıb. Ardınca isə iş adamı yerli mətbuata qısa açıqlama verib və ilginc anons səsləndirib. Hazırda bizneslə məşğul olmadığını, başqa şirkətlərə qarşı heç bir maliyyə öhdəliyinin olmadığını, əksinə, başqa şirkətlərdən külli miqdarda alacağının mövcudluğunu dilə gətirən H.Məmmədov sabiq Nəqliyyat naziri Ziya Məmmədovla aralarında borc olub-olmamasından da danışıb: "Bu, ayrı məsələdir. Bizim şəxsi işimizdir. Ziya Məmmədov bilər, mən bilərəm. Amma sizə elə açıqlamalar verəcəyəm ki, şok effekti yaradacaq".



Əldə etdiyimiz məlumata görə, "hafka"nın "şok effekti yaradacaq açıqlamalar verəcəyinə" dair anonsu keçmiş "nəqliyyat şefi"ndə ciddi təlaş yaradıb. Z.Məmmədov həmin açıqlamaların ya tamamilə, ya da ən azı bir hissəsinin özü ilə bağlı ola biləcəyindən narahatlıq keçirir. Ziya müəllim narahatdır ki, bununla onun adı ətrafında yeni hay-küy qopa, ictimai rezonans alovlana, nəticədə "Hafka"nın açıqladığı hansısa faktlar işin hətta hüquqi müstəviyədək gedib çıxmasına gətirib çıxara bilər. Onsuz da yerli mediada "köhnə dəftərlərin açıla biləcəyi", yəni bir sıra sabiq nazirlərin vəzifədə olarkən qol qoyduqları qanunsuzluqların araşdırılması, beləliklə də həmin keçmiş yüksəkçinlilər barədə cinayət işlərinin açılması, hətta haqlarında həbs qərarlarının çıxarılması ehtimalı barədə mütəmadi olaraq yazılır. Bu zaman isə vəzifəsini itirdikdən xeyli sonra barəsində cinayət işi başladılan və həbs qərarı verilən sabiq nazir Səlim Müslümovun başına gələn "təcrübə" xatırladılır. Eyni aqibətin Ziya Məmmədov, Əbülfəs Qarayev, Nazim İbrahimov, Etibar Pirverdiyev, Elmar Məmmədyarov kimi sabiq iri məmurları da gözlədiyini güman edənlər yetərincədir.

Belə bir ab-havada "Hafka"nın yenidən önə çıxması, gündəmə oturması, bu da azmış kimi "şok açıqlamalar verəcəyini" anons etməsi keçmiş nəqliyyat nazirini niyə təlaşlandırmasın ki!

Onu da qeyd edək ki, Hafiz Məmmədovla Ziya Məmmədov arasında münasibətlər vaxtilə az qala düşmənçilik həddinə qədər çatmışdı. Belə ki, sabiq nəqliyyat naziri bir zamanlar şəriki olan "Hafka" ilə əməllibaşlı ixtilaf içində idi. Proses "Bahar" yatağının işlənilməsi ilə bağlı ən bahalı layihənin Ziya Məmmədovun sərəncamına keçməsi ilə nəticələndi. Lakin həmin proses kifayət qədər ilginc detallarla müşahidə olunmuşdu. Məsələn, "Hafka" o vaxtkı müsahibələrində 2014-cü ilin isti bir iyun günü Kənan ona zəng vurub Ziya Məmmədovun başçılığı ilə keçmiş Milli Təhlükəsizlik Nazirliyinin xüsusi təyinatlı bölməsinin böyük bir dəstəsinin onu axtardığını söyləməsindən danışmışdı. Sitat: "Oğlumun həyəcdiyini söyləyən "Hafka" əlavə etmişdi: "Masanın baş tərəfində nazirin oğlu Anar Məmmədov oturmuşdu, masanın arxasındakı digər bütün yerlər də onun adamları tərəfindən tutulmuşdu. Və şirkətə rəsmən aidiyyəti olan yeganə şəxs, mənim amerikalı partnyorum Grenfeld şirkətinin başçısı onların arasında kasıb qohum qismində vurnuxurdu. Ona, tək rəsmi şəxsə, stul çatmamışdı - bütün stullarda mənim tanımadığım insanlar oturmuşdular və hiss olunurdu ki, onlar yalnız mənim gəlişimi gözləyirlər... Və bu insanlar, qara maskalarda onları əhatə etmiş yekəpər oğlanların dəstəyini hiss edərək, kobud formada tələb etdilər ki, mən yazılı şəkildə "Bahar Operating Company şirkətinin prezidenti vəzifəsindən imtina edim. Onlara izah etmək istədim ki, bütün bunlar qanunsuzdur, amma əbəs yerə. Əvəzində onların"izahanının səbəbini sonra bildim. Onu bir neçə xüsusi avtomobillə "sıxaraq saxladıblar. Qabaq maşından Ziya Məmmədov düşüb, gözləyib ki, qara maskalarda on yekəpər oğlanlar da düşüb onun arxasında döyüş vəziyyəti tutsunlar. Bundan sonra, onu müşayiət edən xüsusi təyinatlı dəstəyə işarə edərək, lovğa-lovğa, təkəbbürlə Kənana deyib ki, oyun başa çatdı. Yəni atana de ki, dərhal görüşə gəlsin. Mən vəziyyəti necəsə yumşaltmaq üçün, ona zəng vurdum. Ziya ciddi şəkildə şəhərdəki məşhur mehmanxanaların birinə getməyimi, orada "Bahar Operating Company şirkəti rəhbərliyinin keçirdiyi toplantıya qatılmağımı və öz səlahiyyətlərimdən imtina etməyimi "tövsiyə etdi". Bundan sonra ona qulaq asmağın mənası yox idi. O qədər "mehriban tövsiyədən" imtina etmək mümkün deyildi..."

Mehmanxanada nisbətən kiçik otağa daxil olanda çox təəccüblədici işi" daha effektiv oldu. Bir müddətdən sonra, anlayaraq ki, burada istənilən danışıqların tamamilə heç bir mənası yoxdur, müvafiq ərizəni yazmağa məcbur oldum..."

Bu "Hafka" ilə Ziya Məmmədov arasında ixtilafın nə qədər dərin və kəskin olmasına dair bircə epizoddur. İş adamının məhz sabiq nazirin hücumları sayəsində müflisləşdiyi barədə də çox deyilib, yazılıb. Bütün bunları nəzərə aldıqda H.Məmmədovun "qisas planı"nı işə salması, öz "şok effektli açıqlamaları" ilə Ziya Məmmədovu çətin vəziyyətdə qoymaq istəməsi tamamilə ağlabatandır. Bunu eks-nazirin özü də bilir və belədə onun keçirdiyi təlaşı anlamaq çətin deyil...

Bir sözlə, görünən odur ki, bizi qarşıda Ziya Məmmədov - "Hafka" qarşıdurmasının yeni, bəlkə də ən maraqlı, üstəlik, həlledici raundu gözləyir...

**Sənan Mirzə**

# Heydər Babayevlə Fazil Məmmədovun 4 milyon manatlıq müəmması

## Sabiq nazirlərə məxsus bankların vergi borclarının məbləği "göz qamaşdırır"





***Azərbaycanda ləğvetmə prosesində olan bankların külli miqdarda vergi borcu var. Belə ki, "qaynarinfo-nun araşdırmasına görə, ləğv prosesində olan 3 bankın vergi borcu toplam olaraq 4 milyon 437 min 41 manat təşkil edir.***

Külli miqdarda vergi borcu olan banklar aşağıdakılardır:

"ATA Bank" - 486 min 15 manat;

"Bank Standart" - 3 milyon 537 min 64 manat;

"Bank of Azerbaijan" - 61 min 441 manat;

Mediada bu bankların oliqarx məmurlara məxsus olması barədə çoxsaylı materiallar tirajlanıb. Həmin materiallarda "ATA Bank"ın keçmiş Vergilər naziri Fazil Məmmədova, "Bank Standart"ın keçmiş İqtisadi İnkişaf naziri Heydər Babayevə, "Bank of Azerbaijan"ın isə keçmiş Nəqliyyat naziri Ziya Məmmədova məxsus olduğu bildirilir.

"Unikal"ın araşdırmasına görə isə vaxtilə ölkənin ən iri banklarından olan "Bank Standart"ASC-nin lisenziyası 2016-cı ildə ləğv olunub. Qərarı Maliyyə Bazarlarına Nəzarət Palatası qəbul edib. "Bank Standart" sabiq iqtisadi-inkişaf naziri Heydər Babayevin rəhbərlik etdiyi "AB Standart" Holdinqə daxil idi. Heydər Babayev bir neçə dəfə rəsmən bəyan edib ki, holdinq 100 faiz özünün mülkiyyətidir.

Sabiq iqtisadi inkişaf naziri 1997-ci ildən Rusiyadakı "Mostbank"ın vitse-prezidenti, həmin bankın Böyük Britaniyada baş nümayəndəsi vəzifələrində işləmiş, 1999-cu ildə isə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunmuşdu. 2015-ci ildə Fərhad Əliyevin həbsindən sonra onun kreslosuna əyləşən H.Babayev 2008-ci ilin oktyabrınadək bu vəzifədə çalışdı. Həmin ilki Prezident seçkilərindən sonra yeni təsdiqlənən Nazirlər Kabinetində yer ala bilməyən bütün diqqətini komitə sədri və nazir olarkən xeyli genişləndirdiyi biznesinin daha da inkişafına yönəltdi. Ancaq onun bu istəyinin baş tutduğunu söyləmək çətindir. Babayevin xüsusilə Azərbaycandakı biznesi tam çökmüş vəziyyətdədir. Onun holdinqinə daxil olan şirkətlərin əksəriyyəti ya ləğv edilib, ya da demək olar fəaliyyətsizdir. Xüsusilə bir neçə il əvvəlki devalvasiyadan sonra bank və sığorta biznesinin göstəriciləri xeyli pisləşən sabiq nazirin zərəri 69 milyon manat kimi qiymətləndirilmişdi. İki devalvasiyadan sonra holdinqin istehsal, sığorta və bank sektorlarındakı toplam zərəri isə 121.5 milyon manat hesablanmışdı.

Elə sabiq Vergilər naziri Fazil Məmmədovla eks nəqliyyat naziri Ziya Məmmədov da postlarını itirdikdən sonra bizneslərinin əhəmiyyətli hissəsini itiriblər. Söhbət ələlxüsus da onların Azərbaycandakı şirkətlərinin, o cümlədən, banklarının acınacaqlı durumundan gedir. "AtaBank" Mərkəzi Bankın İdarə Heyətinin 28 aprel 2020-ci il tarixli qərarına əsasən həmin tarixdən etibarən ləğv edilib. Bu barədə ovaxtkı rəsmi açıqlamada bildirilir ki, "AtaBank"ın maliyyə vəziyyətinin pisləşməsi çoxdan başlayıb. Bank uzun müddətdir ki, əhalinin əmanətlərinin qaytarılması üzrə öhdəliklərini icra edə bilmirmiş. Mərkəzi Bank tərəfindən bankda aparılan yoxlamalar nəticəsində məlum olub ki, Fazil Məmmədovun bankı ciddi maliyyə itkilərinə yol verib, öz kapitalını tam itirib və müflis vəziyyətinə düşüb. Bankın səhmdarları ilə müzakirələrdə onlar yoxlamaların nəticələri barədə məlumatlandırılıb, üstəlik, səhmdarlara bankları əlavə kapitallaşdırmaq təklif olunub, lakin onlar bu imkandan istifadə etməyiblər.

Xatırladaq ki, F.Məmmədov 2000 - 2017-ci illərdə Vergilər naizri postunu tutub.

2002 - 2017-ci illərdə nəqliyyat naziri olmuş, F.Məmmədov və H.Babayev kimi elə həmin vəzifədə ikən də hədsiz varlanmış, nəhəng biznes imperiyası yaratmış Ziya Məmmədovun bankı isə 2016-cı ildə Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 18 yanvar 2016-cı il tarixli, 4 nömrəli qərarı ilə "məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olduğuna, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə" ləğv edilib.

Bir sözlə üç sabiq məmur-oliqarxın bankları bağlanıb, lakin onların ümumilikdə 4 milyon manatdan çox vergi borcu var. Həmin borcların necə ödənəcəyi isə bəlli deyil.

***Sənan Mirzə***



# Əhməd İsmayılov Zoltan Hernyeşlə görüşdü

***Avropa Şurasının Azərbaycandakı Ofisinin rəhbəri, səfir Zoltan Hernyeş Medianın İnkişafı Agentliyində (MEDİA) olub.***

"Unikal" xəbər verir ki, Agentliyin İcraçı direktoru Əhməd İsmayılov qonaqlara ölkədə media islahatlarının gedişi və "Media haqqında qanun" barəsində məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# QHT Agentliyində Fatma Səttarova ilə görüş keçirilib

***Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin ofisində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsinin iştirakçısı Fatma Səttarova ilə görüş keçirilib.***

Münasibəti ilə təbrik edib, səmimi arzularını çatdırıb. Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyev tərəfindən "İstiqlal" ordeni ilə təltif edilməsini Fatma Səttarovanın dövlətçiliklə bağlı işlərinə verilən yüksək dəyər kimi qiymətləndirib. Gənclər günündə keçirilən görüşü "Nəsillərin görüşü" kimi dəyərləndirən Aygün Əliyeva 100 ilin adamının keçdiyi həyat yolunun və fəaliyyətinin gənclərə əsl nümunə və örnək olduğunu vurğulayıb.

Fatma Səttarova Agentlikdə olmasından və bu görüşdən məmnun olduğunu bildirib. Səmimi şəraitdə keçirilən görüşdə Fatma Səttarova onun həyat fəaliyyətinə dövlət qayğısından, Prezident İlham Əliyevlə görüşündən bəhs edib. Sonra Agentliyin əməkdaşlarının suallarını cavablandırıb, onlara öz tövsiyələrini verib.

Daha sonra Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyyatda olan polkovnik Cəlil Xəlilov təşkilatın fəaliyyət göstərdiyi uzun illər ərzində ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiyini və bu gün də yüksək fəallığı ilə seçilən aparıcı ictimai qurumlardan biri olduğunu vurğulayıb. Natiq Respublika Veteranlar Təşkilatının hazırda gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların dövlətimizə və xalqımıza sədaqət ruhunda yetişmələri istiqamətində ardıcıl və səmərəli fəaliyyətindən, veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində görülən işlərdən, 44 günlük Zəfər müharibəsinin 500 nəfər gənc veterenı artıq təşkilatın üzvü olduğundan, Təşkilatın xarici ölkələrin müvafiq təşkilatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən danışıb.

Sonda 100 illik yubileyi münasibəti ilə Fatma Səttarovaya Agentlik tərəfindən xatirə hədiyyəsi təqdim edilib.

# DYP-dən sürücü və sərnişinlərə xəbərdarlıq

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) sürücü və ya sərnişinlərə xəbərdarlıq edib.***

"Unikal"a daxil olan xəbərdarlıqda deyilir: "Yol-nəqliyyat hadisələri içərisində diqqət çəkən məqamlardan biri də bu və ya digər səbəblərdən nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində dayandırılması zamanı öz təhlükəsizliklərinə biganə yanaşan sürücü və ya sərnişinlərin sol tərəfdən qapını açıb yerə düşərkən diqqətsizliyə yol verməleri və ona görə də ağır qəzaların qurbanlarına çevrilmələridir.

Hava və yol şəraitinə, məhdudiyyəti görünməyə, sutkanın işıqlı yaxud qaranlıq olmasına, nəqliyyatın hərəkət şiddətinə əhəmiyyət vermədən bir müddət avtomobili idarə etdikdən sonra yolun hərəkət hissəsində saxlayıb dərhal yerə düşən sürücülər, eləcə də sol tərəfdən avtomobildən düşən sərnişinlər, təəssüf ki, özləri ilə yanaşı digər hərəkət iştirakçılarını hansı təhlükəyə atdıqlarının fərqində olmurlar.



"Yol hərəkəti haqqında" qanuna əsasən, nəqliyyat vasitəsi qapılarının açılması yol hərəkətinin digər iştirakçıları üçün maneə yaradarsa, onları açmaq qadağandır. Bu tələb sürücülərlə yanaşı sərnişinlərə də şamil olunur. Sərnişinlərin səki və ya yolun çiyini tərəfdən minib-düşməsi mümkün olmayan halda, onlar yolun hərəkət hissəsindən o şərtlə minib-düşə bilər ki, bu, təhlükəli olmasın və hərəkətin digər iştirakçıları üçün maneə yaratmasın.

Baş Dövlət Yol Polisi İdarəsi göstərilən səbəblərdən insanların ölümü və ya xəsarət alması nəticələnən onlarla yol-nəqliyyat hadisələrinin baş verdiyini əhalinin diqqətinə çatdırır və hərəkət iştirakçılarına müraciət edərək nəqliyyat vasitələrinə minib-düşərkən ehtiyatlı olmağı, qanunla tələb olunan qaydalara əməl etməyi, özlərinin və başqalarının həyat və sağlamlığına etinasız yanaşmamağı xahiş edir".

# Müxalifət haqqında qanuna ehtiyac varmı? - Partiyalardan reaksiya

***Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa Azərbaycanda "Müxalifət fəaliyyəti haqqında" qanunun qəbul olunmasını təklif edib. Bununla bağlı deputat Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında çıxış edərək bildirib ki, qanunun qəbulu ilə müxalifətçilik fəaliyyətinin çərçivələri müəyyənləşəcək.***

Maraqlıdır, digər müxalifət partiyaları da belə bir qanunun qəbulunu dəstəkləyirmi? Müxalifət funksionerləri "Müxalifət haqqında" qanun layihəsində hansı məqamların xüsusi qeyd edilməsini istəyir?

Müsavat Partiyasının sədri Arif Hacılı Modern.az-a açıqlamasında sözügedən qanunun aktual olmadığını söyləyib:

"Dövlətin bütün sahələri qanunla idarə olunmalıdır. Bu baxımdan qanunvericilik təşəbbüsünə müsbət yanaşmaq olar. Lakin qanunlar bir qayda olaraq, demokratik institutların fəaliyyətinin məhdudlaşdırılmasına yönəlir. Ona görə də, Azərbaycan üçün müxalifət haqqında qanunun xüsusi aktuallıq kəsb etdiyini düşünmürəm".

AĞ Partiya sədri Tural Abbaslı "Müxalifət haqqında" qanunun qəbul edilməsinin tərəfdarıdır: "Çünki bu fəaliyyəti tənzimləyən heç bir normativ sənəd, qanun yoxdur. Bu məsələ müxalifəti bir növ qanundan kənar saxlayır. Yəni Azərbaycanda iqtidar anlayışı var, hüquq baxımından, amma müxalifət anlayışı yoxdur. Buna görə müxalifət haqqında qanunun tərəfdarıyam. Çünki müxalifətin dövlətin siyasi həyatında rolunu təsbit edəcək, kriteriyaları, hüquq və vəzifələrini müəyyənləşdirəcək qanun olmalıdır. Bu məsələdə illərdir boşluq var. Təxminən 2005-2010-cu illərdə müxalifət partiyaları tərəfindən belə bir qanun layihəsinin qəbulu irəli sürülmüşdü, amma təəssüf ki, o zaman plenar iclasa tövsiyə olunmamışdı.

Bir çox nüanslar var ki, qanunda əksini tapmalıdır. Bunu təklif edənlərin layihələri ictimai müzakirəyə çıxarılsa, daha faydalı olar. Çünki konkret sənəd üzərində, maddələr üzərində danışmaq daha rahat olar. Ümumən müxalifət haqqında qanun qəbul olunmalı, bu fəaliyyət növü qanunla tənzimlənməlidir".

Müasir Müsavat Partiyasının sədr müavini Könül İsmayılova hesab edir ki, belə bir qanuna ehtiyac var və partiya qanunun qəbulunu dəstəkləyir: "Müxalifət haqqında qanun qəbul edilsə, saxta, qondarma cinayət işi ilə bağlı partiya sədrləri həbsə atılmaz. Bütün dövlət tədbirlərində müxalifətin iştirakı təmin edilməlidir. Bununla bərabər, hesab edirəm ki, siyasi partiyalar haqqında qanun layihəsinin qəbul edilməsi labüddür".

Respublikaçı Alternativ (ReAl) Partiyasının icra katibi Natiq Cəfərli isə qeyd edib ki, müxalifətçilik qanunla tənzimlənmir: "Proses ölkə qanunvericiliyinə uyğun şəkildə fəaliyyət göstərən siyasi təşkilatlara, seçkilərdə iştiraka, seçki prosesində platformaların yarışına və bu kimi məsələlərə bağlıdır. Bu tipli qanun layihəsi dünya ölkələrindən tək Britaniyada var. Amma orada ikipalatalı sistemdir və əsasən iki partiya olur. Orada müxalifətçilik qanunla yox, ənənələrlə tənzimlənir. Müxalifətdə olan siyasi partiya özünün kölgə kabinetini açıqlayır. Hökumət nazirlərini kölgə kabinetində elan edir. Kölgə kabinetində iqtidar və müxalifətin nümayəndələri müzakirə aparır. Fikir müxtəlifliyi orada yaranır. Bu kimi ənənələr olsa da, Azərbaycanda prosesin qanunla tənzimlənməsi zamanı nəzərdə tutulan məsələni anlamıram. Siyasi partiyalar və seçkilər haqqında qanunda pozitiv dəyişikliklər olsa, məncə, bu kifayətdir. Həmin məqamlar çərçivəsində müxalifətçilik fəaliyyəti davam edə bilər".

Ümid Partiyasının sədr müavini Tamilla Qulami düşünür ki, müxalifətlə bağlı qanunun olması məhdudiyyət deməkdir: "Məncə, müxalifətin, siyasi partiyaların fəaliyyətini qiymətləndirən, onun haqqını verən, onu meydandan uzaqlaşdıran da seçkilər olmalıdır, daha hansısa qanunla fəaliyyətinə məhdudiyyət qoyaraq deyil".

Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyublu da müxalifətçiliyi qanunla çərçivələndirməyi düzgün hesab etmir: "Seçkidə ən çox səs toplayan partiya hakimiyyətə gəlir. Digər partiyalar isə müxalifətdə qalır və siyasi mübarizəsini davam etdirir. Müxaliflik konkret vəzifə deyil ki, qanunla tənzimləyək. Hər partiyanın nizamnaməsi, fəaliyyət istiqaməti var. Heç bir siyasi qurum nizamnaməsində "müxalifətçilik" öhdəliyini götürmür. Belə bir qanun qəbul olunarsa, yaranmış partiya fəaliyyətini necə tənzimləyəcək? Əvvəlcədən bəyan edəcək ki, müxalifət partiyası kimi fəaliyyətə başlayır? Deməli, başqa cür fəaliyyət göstərsə, partiyanın qeydiyyatını ləğv edəcəklər, yaxud məhdudiyyətlər qoyacaqlar. Bu, sadəcə siyasi fəaliyyətin deyil, ümumən insan haqlarının pozulması anlamına gəlir".

***Yola salmaqda olduğumuz həftə Azərbaycanda iki şirkətin vəzifəli şəxslərinə cinayət işi açılıb. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, qurumun Cinayət təqibindən kənar icraatlar idarəsi və bu sahə üzrə aidiyyəti rayon prokurorlarının köməkçiləri tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birgə Balakən və Qəbələ rayonlarının ərazilərində yerləşən qum-çınqıl yataqlarında yerin təркinin qorunması və istifadə edilməsi qaydalarının pozulması ilə qanunsuz hasilatın aparılması barədə məlumatlar yoxlanılıb.***

# Balakənin icra başçısına çətin bir asan sual...

## Rayonda milyonlarla manatlıq qanunsuz qum-çınqıl hasilatı ifşa edildi, ortaya xeyli müəmmalar çıxdı

Mütəxəssislərin iştirakı və xüsusi texniki vasitələrin köməyi ilə ərazilərə baxış keçirilib, ölçülər götürülüb, hesablamalar aparılıb, müvafiq dövlət qurumlarının reyestrlərində olan məlumatlar təhlil edilib, aidiyyəti şəxslərin izahatları alınıb və müvafiq dövlət qurumlarına verilən sorğulara cavablar toplanılıb.

Müəyyən edilib ki, "Balakən Kərpic İstehsalı Müəssisəsi" MMC və "Redstone" MMC-nin vəzifəli şəxsləri 1 milyon 137 min manat, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs Əsgər Əsgərov tərəfindən Balakən rayonu ərazisində 774 min manat dəyərində qanunsuz qum-çınqıl hasilatı aparılıb.

Qeyd olunan faktlar üzrə Cinayət Məcəlləsinin 188.1 (Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma), 255.1 (Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) və 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə 3 cinayət işi başlanılaraq istintaq olunması üçün Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib.

Göründüyü kimi, biriləri adıçəkilən rayonda 2 milyon manata yaxın böyük bir məbləğdə haqsız qazanc əldə ediblər. Bu qədər iri qazanc əldə etmək isə bir günün, bir ayın işi deyil. Belə çıxır ki, adıçəkilən iki şirkət və bir fiziki şəxs uzun müddət qanunsuz qum-çınqıl hasilatı ilə məşğul olublar. Və...

Və bundan yerli icra strukturları, xüsusilə də rayon icra hakimiyyətinin rəhbərliyi xəbər tutmayıb!

İnandırıcıdırmı? Qətiyyən! Çünki yerli icra hakimiyyətlərinin xüsusilə sahibkarlıq subyektlərini ciddi diqqətdə və nəzarətdə saxlayırlar. İstənilən rayonda rəhbər şəxsləri "görmədən", onların icazəsini, razılığını almadan daşı daş üstünə qoymaq da, daşın üstündən daş götürmək də mümkünsüzdür. Belədə,



Balakən rayonunun icra başçısı İslam Rzayevə haqlı bir sual ünvanlamamaq olmur: necə olur ki, yerli qurumların gözləri qabağında, üstəlik, uzun müddət ərzində baş verən qanunsuzluğu görməyiblər?

Sualımızı bir az da konkretləşdirək, daha doğrusu, biri asan, digəri çətin sual olmaqla iki yerə ayıraq.

Asan sual: doğrudanmı, Balakən rayon İcra Hakimiyyətinin məsul şəxsləri rayon ərazisində milyonlarla manatlıq qum-çınqıl hasilatından xəbərsiz idilər? Əgər elədirsə, axı bu öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməməkdən başqa bir şey deyil.

Çətin sual: Yox, əgər adıçəkilən rayonun rəhbər şəxsləri işlərini layiqincə yerinə yetirirlərsə, bu o deməkdirmi ki, ya zəlzələdən, ya vəlvələdən milyonlarla manatlıq qanunsuz qum-çınqıl hasilatına göz yumulub? Bu halda da şübhələr yaranır ki, adıçəkilən iki şirkət və fiziki şəxs ya kim(lər) tərəfindənsə himayə edilib, ya da nələrinsə müqabilində müəyyən post sahiblərindən öz qanunsuz əməllərini həyata keçirmək üçün qeyri-rəsmi icazə alıblar.

Bu dediklərimizdən, yazdıqlarımızdan başqa bir versiya, bir izah varsa, onu da dinləmək, bilmək istərdik.

Sonda onu da deyək ki, Balakən rayonunun icra başçısı İslam Rzayev bir müddət Vergilər Nazirliyinin Göyçay rayonu və Bakı şəhərinin Nizami və Əzizbəyov rayonları üzrə strukturlarında şöbə rəisi, müfəttişliyin rəisi, idarə rəisinin müavini, sonralar isə "Azəriqaz"da, Dövlət Neft Şirkətinin Audit Departamentində yüksək vəzifələr tutub, sonda da Balakən rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə gətirilib.

O düz 11 ildir həmin postu tutur...

***Toğrul Əliyev***

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Məktəblərin internetə əlçatanlığı artır

## Osman Gündüz: "2020-ci ilədək ölkədə cəmi 300 məktəbin fiber optik bağlantısı olub. Birdən-birə bu rəqəm 726-ya yüksəlib"



***Müasir təhsilin tələblərindən biri də təhsil müəssisələrində keyfiyyətli internetə əlçatanlığın təmin olunmasıdır. Bu gün paytaxt məktəblərində bununla bağlı vəziyyət qismən yaxşı olsa da, bölgələrdə təhsil müəssisələrinin internetlə təminatı ürəkaçan səviyyədə deyil. Hətta bu gün internet olmadığından bəzi dərs proqramlarının və mövzuların görüntülü təsviri mümkün olmur. Həmçinin pandemiya dövründə məktəblərin keyfiyyətli internetlə təminatı məsələsini gündəmə gətirib.***

Bəs görəsən hazırda məktəblərin keyfiyyətli internetlə təminatı hansı səviyyədədir?

Azərbaycan İnternet Fomunun prezidenti Osman Gündüz deyir ki, 10 il ərzində fiber optik bağlantı yaradılan məktəblərin ümumi sayı ilə son bir il ərzində həmin texnologiyaya qoşulanların sayı təxminən eynidir: "Bir neçə gün öncə məlumat verildi ki, hazırda 726 məktəb fiber optik bağlantı ilə internetə qoşulub. Bu təbii ki, maraqlı rəqəmdir. Xatırladıram ki, uzun illərdi ki, bu rəqəm ciddi olaraq dəyişmirdi. Uzun illər bu rəqəm ildə cəmi 50- 60 arası dəyişə bilirdi. Nəzərə alsaq ki, bizdə 4500-dək məktəb var. Keyfiyyətli internetlə bağlı situasiya bu rəqəmlərdən də daha qabarıq görsənir. Son açıqlanan statistikadan görsənir ki, ötən il Təhsil Nazirliyi keyfiyyətli internet məsləsində çox ciddi addımlar atıb. Çünki, əvvəlki il, yəni 2020-ci ilədək ölkədə cəmi 300 məktəbin fiber optik bağlantısı olub. Birdən-birə bu rəqəm 726-ya yüksəlib. Statistkadan görsənir ki, Nazirlik bir il ərzində 400-dən çox məktəbi keyfiyyətli optik bağlantı ilə təmin edə bilib.Düzünü deyim, böyük uğurdur, çox təqdirəlayiq haldır".

O. Gündüz deyir ki, eyni zamanda bu addımlar həm də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yürütdüyü liberal, "yumşaq" siyasətlə, özəl provaydrelərə yaratdığı şəraitlə bağlı olub.

O. Gündüz onu da bildirir ki, əvvəlki illərdə telekommunikasiya sektorunda ifrat inhisarçılıq meylləri hökm sürürdü, nəinki özəl provayderlər, heç digər dövlət qurumları da, məsələn TN-nin AzEduNet qurumu da dövlətə məxsus mövcud rabitə infrastrukturundan istifadə edə bilmirdilər: "Bununla belə, düşünürəm ki, hələlik bütün ölkə üzrə məktəblərin keyfiyyətli internet təminatı yetərli hesab etmək doğru olmazı. Məktəblərin yarısından çoxunda keyfiyyətli internetə əlçatanlıq hələlik yoxdur. Ümid edirəm ki, RİNN tərəfindən hazırda bütün ölkə üzrə GPON texnologiyası ilə fiber optik internet infrastrukturunun qurulması işləri çərçivəsində bütün təhsil müəssisələrinin də keyfiyyətli internetlə təminatına diqqət yetiriləcək. Bu baxımdan TN və RİNN dövlət-özəl tərəfdaşlığı çərçivəsində AzEduNet və digər provayderlərin də resurslarından səmərəli istifadə etməlidir.

Xatırladıram ki, məktəblər həm də ADSL və Peyk texnologiyası ilə, həmçinin TN və Bakcell arasında imzalanan memoranduma əsasən 3G, 4G və LTE texnologiyası əsasında da internetə qoşulublar".

Qeyd edək ki, məktəblərin daha keyfiyyətli və dayanıqlı texnologiya hesab olunan fiber optik internetə qoşulması ilə bağlı son 10-12 ilin statistikası aşağıdakı kimidir:

2009- cu il - 10 məktəb
2012-ci il - 20 məktəb
2015-ci il - 65 məktəb
2016-ci il - 128 məktəb
2017-ci il - 170 məktəb
2018-ci il - 206 məktəb
2019 -cu il - 250 məktəb
2020-ci il - 301 məktəb
2021-ci il - 726 məktəb

Bu statistikadan görsənir ki, son bir ildə fiber optik bağlantı qurulan məktəblərin sayı, son 10 ildə fiber optik bağlantı qurulan məktəblərin sayından çox olub.

Məlumat üçün onu da bildirək ki, Azərbaycan Təhsil Şəbəkəsinin təqdim etdiyi başlıca imkanlar internetə çıxışın təmin olunması, internetin zərərli məzmunlardan filtrasiyası, internet şəbəkəsinin qurulması və internet üzərindən rabitənin (İP telefoniya, video-konfrans) təşkili, təhsil müəssisəsində videomüşahidə xidmətinin qurulması, eləcə də şəbəkə və avadanlıqlara texniki dəstək xidmətinin göstərilməsidir. Fiber optik internet bağlantısının təmin edilməsi məktəblərdə məlumatların ötürülmə sürətinin artırılması, yeni Wi-Fi zonalarının yaradılması, sinif otaqlarında yeni kompüter avadanlıqlarının qoşulması və bununla da daxili şəbəkənin genişləndirilməsini mümkün edəcək. Bununla yanaşı, məktəblərdə tədrisin innovativ formatda təşkili olunması, dərslərin kəsintisiz distant formatda keçirilməsi və dərs zamanı interaktiv alətlərdən istifadə üçün geniş imkanlardan faydalanmaq mümkün olacaqdır.

Xatırladaq ki, Təhsil Nazirliyinin Təhsil sisteminin informasiyalaşdırılması idarəsi orta məktəblərin yüksəksürətli internet şəbəkəsinə qoşulması, koronavirus pandemiyası dövründə şagirdlərin distant təhsilə cəlb olunması məqsədilə məktəblərin fiber optik kabellə təmin edilməsi ilə bağlı elan etdiyi açıq tendere ötən ilin oktyabr ayında yekun vurulub. Vahid dövlət satınalmaları portalının məlumatına görə, tenderin qalibi "AzEduNet" MMC-dir. Qalib şirkətə 5 milyon manat ödəniləcək.

*Gülayə Mecid*

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

## Türkiyə parlamentinin komissiyası Şuşa Bəyannaməsini təsdiqlədi

***Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici Əlaqələr Komitəsində Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsinin təsdiq edilməsinə dair Qanun təklifi qəbul edilib.***

"Unikal"ın məlumatına görə, fevralın 3-də komissiyanın iclası keçirilib.

Ədalət və İnkişaf Partiyasının (AKP) İstanbul millət vəkili Akif Çağatay Kılıçın sədrliyi ilə keçirilən Komissiya iclasına xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran da qatılıb. Y.S.Kıran Qafqaz regionunun strateji əhəmiyyətini vurğulayaraq, bölgədəki proseslərin Türkiyə və Azərbaycanın maraqları ilə sıx bağlı olduğunu bildirib.

Müzakirələrdən sonra TBMM-in Xarici İşlər Komissiyası Şuşa Bəyannaməsinin təsdiqlənməsi üçün sənədin Türkiyə parlamentində müzakirəyə çıxarılmasını məqsədəuyğun hesab edib.

## Anar Kərimov Gəncədə səfərdədir

***Mədəniyyət naziri Anar Kərimov fevralın 3-də Gəncə şəhərinə səfər edib.***

Nazirlikdən verilən məlumata görə, səfər çərçivəsində nazir Gəncə şəhərində yerləşən mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olacaq. Eyni zamanda mədəniyyət və incəsənət sahəsində çalışan tanınmış şəxslərlə görüşlər keçiriləcək.

Nazir əvvəlcə ulu öndər Heydər Əliyevin Gəncə şəhərindəki abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoyub.

Sonra Anar Kərimov Miniatür Kitab Muzeyinin Gəncə filialına gəlib. Muzey haqqında nazirə məlumat verilib.

Daha sonra Gəncə Dövlət Tarix Diyarşünaslıq Muzeyinə baxış keçirilib. Baxışın məqsədi təmirdən sonra muzeydə aparılan işlərlə tanışlıq, mütəxəssislər tərəfindən aparılan inventarizasiya işlərini nəzərdən keçirməkdir. Nazir təmirdən sonra bugünə qədər əldə olunan nəticələr, siyahıyaalınma, qeydəalınma ilə tanış olub. İnventarizasiya işini aparan yerli və Bakıdan dəvət olunan mütəxəssislərlə söhbət aparıb. Bununla yanaşı, nazir mövcud problemlərin qısa zaman ərzində aradan qaldırılması üçün müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin işinin və idarəçiliyinin təkmilləşdirilməsi, regionlardakı mədəniyyət müəssisələrinin fəaliyyətinin səmərəliliyi və effektivliyinin artırılması məqsədilə bölgələrə səfər planı hazırlanır.

Səfərlərin əsas hədəfi regionlarda mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, mövcud potensialı, imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən şəxsləri nazirliyin prioritetləri və qarşıya qoyulan məqsədləri barədə yerində məlumatlandırmaq və həmin şəxsləri nazirlik tərəfindən aparılan islahatlara birbaşa cəlb edərək mədəniyyət sahəsinin dayanıqlı inkişafına töhfə verməkdir.

## Ötən il 5 nəfər sərhəd pozucusu məhv edilib

***Ötən il sərhəd naryadları tərəfindən sərhəd pozucularına qarşı təlimata uyğun silah tətbiq olunması nəticəsində 2 halda 3 nəfər yaralanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sərhəd Xidmətinin (DSX) 2021-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat müşavirəsində bildirilib.

Qeyd edilib ki, 5 halda 5 nəfər sərhəd pozucusu məhv edilib.

# Azərbaycanda bu şəxslərə dərmanlar pulsuz verilir - RƏSMİ



***İcbari tibbi sığorta çərçivəsində stasionar müalicə və təcili təxirəsalınmaz tibbi yardım zamanı istifadə olunan dərman və tibbi sərf Xidmətlər Zərfi çərçivəsində təmin edilir.***

”Unikal” xəbərinə görə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib ki, tibb müəssisəsində ambulator tibbi yardım çərçivəsində göstərilən bir sıra tibbi xidmətlərdə istifadə edilən anesteziya xidməti, dərman təminatı və tibbi sərf Xidmətlər Zərfi ilə təminata alınır.

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən Respublika Endokrinoloji Mərkəzində somatotrop hormonu çatışmazlığı diaqnozu qoyulan uşaqlar ödənişsiz müalicə olunur. Agentlik tərəfindən uşaqlar boy hormonu preparatı ilə təmin olunur. Somatotrop hormon çatışmazlığı diaqnozu laborator müayinə əsasında pediatr-endokrinoloq tərəfindən qoyulur. Dərmanlar böyümə zonalarının bağlanmasına yəni, sümük yaşı (rentgen müayinəsinə əsasən uşağın skeletinin sümüklərinin inkişafına uyğun gələn yaşın şərti mənası) qızlarda 14, oğlanlarda isə 16 yaşına qədər ödənişsiz verilir. Görülən işlərin nəticəsi olaraq boy hormonu çatışmazlığından əziyyət çəkən uşaqlarda boy artımı baş verir.

Qeyd edək ki, boy hormonu çatışmazlığının müalicəsinin Xidmətlər Zərfinə daxil olmamasına baxmayaraq, Agentlik uşaqların fiziki inkişafdan geri qalmasının qarşısını almaq və boyqısalığı olan uşaqları erkən aşkarlamaq məqsədilə sözügedən xidməti təmin edir.”, - deyə məlumatda qeyd olunub.

Həmçinin bildirilib ki, Agentliyə müharibə iştirakçısı, şəhid ailəsi üzvü və müharibədən zərər çəkmiş şəxs tərəfindən daxil olan müraciətə əsasən psixoloji yardım mərkəzlərində müayinə əsasında psixi pozuntuların müalicəsi üçün 6 adda zəruri psixotrop dərman preparatları ödənişsiz təqdim olunur.

“Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi tərəfindən təchiz edilən dərman preparatlarını regional psixoloji yardım mərkəzlərinin fəaliyyət göstərdiyi müəssisələrdən və ya burada çalışan psixoloqların yönləndirdiyi tibb müəssisələrindən əldə etmək olar.

Ambulator müalicə üçün həkim tərəfindən resept əsasında təyin olunan dərman vasitələri Xidmətlər Zərfinə daxil deyil. Gələcəkdə resept əsasında təyin olunan dərman vasitələrinin icbari tibbi sığorta çərçivəsində təminata alınması həyata keçirilərsə, bu barədə ictimaiyyətə ətraflı məlumat veriləcək”, - deyə əlavə edilib.

# "Xəyal" şadlıq sarayının sahibi cərimələndi

***Saatlı rayonunda fəaliyyət göstərən “Xəyal” şadlıq sarayının sahibi cərimələnib.***

Bu barədə ”Unikal”a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şirvan regional qrupundan məlumat verilib.

Bildirilib ki, Saatlı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri müvafiq tədbirlərlə rayon ərazisində təşkil olunan toy mərasimi zamanı karantin rejimindən irəli gələn qayda və tələblərin pozulması halları müəyyən edilib.

Belə ki, aparılan yoxlamalar zamanı rayon ərazisində fəaliyyət göstərən “Xəyal” şadlıq sarayında təşkil edilən toy mərasimi ilə bağlı məlumatların “icaze.e-gov.az” portalında qeydiyyatdan keçirilməməsi müəyyən edilib. Həmin obyektin sahibi İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən 4000 manat məbləğində cərimə olunub.

# "Unikal"ın gənc əməkdaşı Prezidentlə görüşdən danışdı

***“Unikal”ın gənc əməkdaşı Ağarza Elçinoğlu cənab prezident İlham Əliyevin də çıxış etdiyi Azərbaycan gəncləri gününün 25 illiyinə həsr olunmuş gənclər forumunda iştirak edib. Prezidentlə görüşdən sonra o, təəssüratlarını bizimlə bölüşüb.***

***- Cənab prezident İlham Əliyevin dünənki gənclər forumundakı tövsiyələri barədə nə deyə bilərsiniz?***

- Cənab prezidentin gənclər forumunda təbrik nitqi qısa oldu. Forumda əsas hissə gənclərin onunla sual-cavabına ayrıldı. Düşünürəm ki, prezidentin gənclərə güvənməsi, gələcəyi onların sərəncamına vermək istəməsi doğru addımdır. Buna görə də o, forum zamanı gənclərin verdiyi təklifləri, onların sual və xahişlərini diqqətlə dinləyərək nəzərə aldı. Bundan əlavə, Prezident İlham Əliyev bizlər üçün bir sıra tövsiyələr səsləndirdi. İdmanla məşğul olmaq, hətta siqaret kimi pis vərdişlərdən uşaqlaşmağı sağlam gənclik üçün




nümunəvi addım kimi qeyd etdi.

***- Azad düşüncəli qələm əhli kimi ölkə başçısının hansı fikirləri yaddaşınızda qaldı?***

- Prezident gənclərin asanlıqla mövqe dəyişə bilməsindən, hansısa siyasi və ya dini təşkilatların qara düşüncələrinə qapılmasından da söz açdı. Hazırda ölkəmizdə dini təbliğata həddən çox yol verilir. Sanki kimsə onları Şeyx Nəsrullah kimilərinin dövrünə çəkmək istəyir. Bu xüsusda prezidentin gənclərə xəbərdarlığı və tövsiyələri yadımda qalan amillərdən oldu.

***- Forumda Prezidentin şəhid general-mayor Polad Həşimovla bağlı fikirləri sizdə hansı təəssüratları yaratdı?***

- Şəhid generalımız Milli Qəhrəman Polad Həşimovun qızı Aybəniz xanımın şəhid ailələrinə göstərdiyi dəstək və qayğı üçün təşəkkürü zamanı prezidentin də generaldan danışarkən kövrəlməsi forumun ən duyğusal anlarından biri oldu. Polad Həşimovun hələ sağlığında prezidentin diqqətində olması, onun hərbi xidmətlərinin layiqincə qiymətləndirilməsi və şəhadətindən sonra unudulmaması bir gənc olaraq məndə çox xoş fikirlər formalaşdırdı. Çünki xalq şəhidləri ilə ucalır, onların qanı bahasına qazanılmış müstəqil ölkədə yaşayır.

***Seymur Əli***

# Azərbaycan Macarıstanla bu 2 sənədi imzaladı

***Bu gün Bakıda keçirilmiş Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclasında iki ölkə arasında bir sıra sənədlər imzalanıb.***

Sənədlərdən biri ”Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Macarıstanın Daxili İşlər Nazirliyi arasında Su Ehtiyatlarının İdarə Edilməsi sahəsində Anlaşma Memorandumu”dur.

Memorandumu Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Macarıstanın xarici işlər və ticarət naziri Piter Siyarto imzalayıb.

Digər sənəd isə ”Azərbaycan və Macarıstan arasında heyvanların sağlamlığı haqqında Əməkdaşlıq Memorandumu”dur.

Memorandumu Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və P.Siyarto imzalayıb.

Bundan başqa, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla və P.Siyarto ”Macar dilinin və mədəniyyətin tədrisi ilə bağlı saziş”ə imza atıblar.

İclasın yekununda isə Protokol im-



zalayıb. Onu Azərbaycanın əmək və əhalinin sosial müdafiə naziri Sahil Babayev və P.Siyarto imzalayıblar.

# DGK-da Gənclər Günü münasibətilə tədbir keçirildi

***Dövlət Gömrük Komitəsinin Akademiyasında 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə geniş bayram tədbiri keçirilib.***

”Unikal” xəbər verir ki, tədbirdə Akademiyanın rəhbərliyi, əməkdaşlar və tələbələr iştirak ediblər.

Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Akademiyanın tələbələrinin son 1 il ərzindəki fəaliyyətini özündə əks etdirən videoçarx nümayiş olunub.

Akademiyanın rəisi general-mayor Qulu Novruzov tədbirdə giriş nitqi ilə çıxış edib. O, gəncləri bayram münasibətilə öz adından, həmçinin Dövlət Gömrük Komitəsinin rəhbərliyi adından təbrik edərək onlara uğur dolu gələcək və sağlam həyat arzulayıb. Ölkəmizdə 2 Fevral - Azərbaycan Gəncləri Gününün qeyd edilməsinin, bu sahədə dövlət siyasətinin formalaşdırılmasının Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vu-




rğulayıb. Q.Novruzov 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlarla, rəşadətlə tarixdə silinməz iz qoyan bugünki gənclərimizin gələcək nəsillər üçün də nümunə olacağını qeyd edib.

Son illər ərzində Gömrük Akademiyasının tələbələrinin əldə etdiyi nailiyyətlərdən söz açan Qulu Novruzov, bir neçə gün öncə tələbələrin iştirakı ilə Ümümdünya Gömrük Təşkilatının (ÜGT) baş katibi Kunio Mikuriya ilə keçirilən görüşdə, baş katibin Akademiyanın tələbələri haqqında səslən-dirdiyi xoş fikirləri xüsusi olaraq tədbir iştirakçılarının nəzərinə çatdırıb. Çıxışının sonunda Akademiya rəisi tələbə-gənclərə vətənpərvər və milli ruhda fəaliyyət göstərmələri, bilik və bacarıqlarını hər zaman ölkəmizin inkişafı naminə səfərbər etmələri barəsində tövsiyələrini də verib.

Daha sonra tədbir bədii hissə ilə davam edib. Akademiyanın tələbələrinin ifa etdikləri zövq oxşayan musiqi nömrələri, şeirlər, rəqslər tədbiri daha da rəngarəng edərək, iştirakçılara xoş əhval-ruhiyyə bəxş edib.

Sonda Akademiyanın ictimai həyatında xüsusi fəallığa görə seçilən tələbələr Akademiya rəisi tərəfindən sertifikatlarla təltif olunublar. Qulu Novruzov tədbirin uğurla təşkil olunmasında zəhməti keçən hər kəsə təşəkkür edərək tədbir iştirakçıları ilə birgə xatirə şəkli çəkdirib.

# Yoluxmaların artması qapanmaya səbəb ola bilərmi? - Açıqlama

***"Azərbaycanda COVİD-19 (Omikron) virusuna yoluxma sayı 6 minlik psixoloji həddi keçdi. Əslində, "Omikron" virusunun yoluxma tezliyini nəzərə alsaq, bu gözlənilən idi".***



"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, son günlər qonşu ölkələrdə də yoluxma sayında ciddi artımlar müşahidə olunur:

"Dünən Rusiyada 141 min 883, Türkiyədə 110 min 682, Gürcüstanda 26 min 320 nəfər virusa yoluxub. ABŞ və Fransada isə gündəlik yoluxma sayı 300 mindən çoxdur. Bütövlükdə, dünən dünyada 3 milyondan çox insanda virus aşkarlanıb. Göründüyü kimi, əksər ölkələrdə yoluxma sayları rekord səviyyədədir. Buna rəğmən, artıq bir sıra ölkələr karantin rejiminin ləğv edilməsi və ya tamamən yumşaldılması kimi qərarlar qəbul edirlər. Bu isə ondan xəbər verir ki, dünya sərt karantinlərdən, yumşaq desək, bezib. Buna görə də, ölkələr "lock down" qərarlarının qəbulunda ehtiyatlıdırlar".

Deputat bildirib ki, Azərbaycan yumşaq karantin rejimini tətbiq edən ölkələrdəndir:

" "Omikron" virusunun yayılma dairəsinin geniş olmasına baxmayaraq, indiki halda yenidən sərt qapanmalara getmək arzuolunan deyil. Real sektordakı açılımların və yenidən bərpa olunan aktivliyin qorunub saxlanması vacibdir. Xidmət, ictimai iaşə və turizm kimi sektorlarda aktivlik artıq bərpa olunur və 2022-ci ildə daha geniş dövriyyə hədəflənir. Bu baxımdan, sərt karantin tədbirlərinin tətbiqi deyil, hər birimizin virusdan qorunmaqla bağlı qaydalara tam əməl etməyimiz daha azruolunandır. Sərt karantin iqtisadi aktivliyi məhdudlaşdırdığı üçün məqsədəuyğun hesab olunmur".

# ASC Laçın və Tərtərdə suvarma mövsümünə hazırlaşır

***Laçın obalarında suvarma mövsümünə hazırlıq başlayıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, 1990-cı ildən Ağcabədi rayonu Taxtakörpü ərazisində fəaliyyət göstərən Laçın Suvarma Sistemləri İdarəsinin əsas vəzifə və funksiyası rayonda olan əkin sahələrini suvarma suyu ilə təmin etməkdir. İdarənin balansında olan suvarmaya yararlı sahələr 18510 hektardır.***



Ondan 12600 hektarında kənd təsərrüfatı əkinlərində istifadə olunur. Rayonda Kollektor-Dren şəbəkələri yaradılıb ki, bu drenlər ilkin su yığıcı və qapalı drenlər olmaqla ümumi uzunluğu 21 kilometrə yaxındır. Su itkisinin qarşısının alınması və suvarma suyunu fermerlərə daha asan çatdırılması üçün son illər torpaq məcralı kanalların beton üzlüyə alınması prosesi gücləndirilib. Başlanğıcını Fingə-1 nasos stansiyasından götürən və uzunluğu 6.5 km olan torpaq məcralı kanalın bir hissəsi 2020 və 2021-ci illərdə beton üzlüyə alınıb. Bu işlər ardıcıllıqla növbəti illərdə də davam etdiriləcək.

Laçın Suvarma Sistemləri İdarəsinin balansında olan 17 ədəd nasos stansiyanın hər biri növbəti suvarma mövsümünə hazır vəziyyətə gətirilib. Bundan başqa suvarmada önəmli yeri olan ümumi suvarma kanallarının uzunluğu 349 km-dir. O cümlədən beton kanallar 19 km-ə yaxın, boru kəməri 4 km və torpaq kanallar 326 km-dir. Hazırda torpaq kanallarda növbəti suvarma mövsümünə hazırlıq məqsədilə lildən təmizləmə işləri görülür.

Görülən işlər rayonda fəaliyyət göstərən fermerlərin də ürəyincədir. Onlar növbəti mövsümdə daha geniş sahələrdə əkin aparaaraq bol məhsul əldə etməyi planlaşdırırlar.

Qeyd edək ki, Laçın Suvarma Sistemləri İdarəsinin balansında olan ərazi relyefinə görə, müxtəlifdir. İdarənin xidməti ərazisi Qarqarçay və Kür çayları əhatəsində yerləşir. Suvarma suyu öz axımı ilə və mexaniki üsulla Kür çayından götürülərək əkin sahələrinə verilir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat Dilqəm Şərifov bildirib ki, Tərtər rayonunda əkin sahələrinin növbəti suvarma mövsümündə su ilə təminatının yaxşılaşdırılması üçün Tərtər Suvarma Sitemləri İdarəsi tərəfindən gücləndirilmiş iş rejiminə keçilib. Artıq bu ilin məhsulu üçün əkilmiş taxıl, arpa, yem və yonca bitkilərinin suvarılması tam olaraq başa çatdırılıb. Su itkisinin qarşısının alınması üçün arxların lildən və kol-kosdan təmizlənməsi hazırda davam etdirilir. Bu prosesi həyata keçirən texnikaların sıradan çıxmış ehtiyat hissələri və yağ sistemləri yenisi ilə əvəz edilərək yenidən saz vəziyyətə gətirilib. İdarə tərəfindən təsərrüfatlar arası və təsərrüfat daxili kanallarda 420 min kubmetr lildən və kol-kosdan təmizləmə işləri aparılıb.

Tərtər Suvarma Sistemləri idarəsinin balansında 552 ədəd subartezian quyusu var. Ötən ilin 12 ayı ərzində 228 ədəd subartezian quyusunun nasosları əsaslı təmir olunaraq işə salınıb, 46 ədəd subartezian quyusunun yararsız nasosları yenisi ilə əvəz olunub. Balansda olan 22 ədəd subartezian quyusunda avtomatlaşdırılmış idarəetmə sistemlərinin quraşdırılmasına başlanılıb, 20 ədəd hidrotexniki qurğu təmir edilib. Bundan əlavə cari ildə uzun müddət qəzalı vəziyyətdə olduğu üçün istismarı səmərəsiz olan 4 ədəd subartezian quyusunun iş rejiminin yenidən bərpası planlaşdırılaraq və icrası başa çatdırılıb.

Qeyd edək ki, idarənin balansında olan əkin sahələrinin 15000 hektarı Tərtər çayı,13500 hektarı subartezian quyuları və 400 hektarı isə İncəçay çayı vasitəsilə suvarılır.




# Ürəyi Vətənlə döyünən qəhrəman

***Vətənini canından əziz tutan, onun uğrunda gedən amansız döyüşlərdə şəhidlik zirvəsinə ucalan Səxavət Əbi oğlu Hacıyev haqqında danışmağa dəyər. Xalqımızın qəhrəmanlıq tarixinə düşən, özü ürəklərdə yaşayan Səxavət Lerik rayonu, Rvarud kəndindən idi. Bu, ulu yurd yeri özünün bütün eşqini, məhəbbətini millətinin tərəqqisinə bağlayan, xoşbəxtliyini doğma divarında, daşında axtaran, xalq arasında böyük nüfuzu olan köklü-köməcli övladları ilə yaxşı tanınır. Səxavət saf əməlli, mərd adamlardan görübgötürməklə orta məktəbi başa vurur. Yüksək mənəviyyatlı, xeyirxah gənc kimi müstəqil həyata qədəm qoyur. 1984-cü ildə Bakı Politexnik Texnikumuna daxil olur. Dövrün tələblərinə uyğun sovet ordusu sıralarında əsgəri borcunu da şərəflə, ləyaqətlə ödəyir.***

Səxavət bunlardan sonra taleyini zəhmət meydanında sınayır. Xalq üçün çalışmaq, əzmkarlıq göstərmək, el-obaya səmimi xidmət etmək istəyi iç dünyasından gəlir. Odur ki, nəcib həyat amalı , xeyirxah işləri, eləcə də fəal vətəndaşlıq mövqeyi ilə tez də yüzlərin, milyonların ürəyinə yol tapa bilir. Amma mənfur erməni dığaların Azərbaycanın ən müqəddəs guşəsi olan Dağlıq Qarabağın işğalına heç cür göz yuma bilmir. Vətənin qeyrətli igidlərə ehtiyacını duyub, qurduğu rahat güzəranını cəbhədə səngərlə dəyişməyə qərar verir. Və 1992-ci ildə əyninə əsgər paltarı geyinib Vətənin müdafiəsinə qalxır. Səxavətin gərgin döyüş günləri Şuşadan başlanır. Qanı bahasına adına can dediyi Azərbaycanın şərəfini ləyaqətlə qoruyur. Dəfələrlə bir-birindən çətin mübarizədə sözün əsl mənasında polad sinəsini yanar od edib düşmənin bağrını çatladır. Bir müddətdən sonra Səxavətin sorağı Sədərəkdən gəlir. Burada da qeyri-bərabər döyüşlərdə mərdliklə vuruşur, erməni dığalarına sarsıdıcı zərbələr endirir.

17 yanvar 1993-cü ildə qarı düşmən Ağdərəyə qəfil hücum edir, ağır müharibə başlanır. Qaynar nöqtələrdə olmağı özünə şərəf sayan Səxavət Ağdərənin müdafiəsinə gəlir. Adəti üzrə öndə getməklə yenə də düşmənə qarşı son nəfəsinə qədər qəhrəmanlıqla döyüşür. Lakin bu döyüşdə özünü qəfil atılan gülləden qoruya bilmir. Ağır yaralanır. Çiyin-çiyinə vuruşduğu silahdaşları onu müharibə meydanından çıxarmalı olurlar. Bakıdakı M. Nağıyev adına xəstəxanasında həkimlərin bütün səyinə baxmayaraq, Səxavətin həyatını xilas etmək olmur. 8 gündən sonra onun Vətən eşqi ilə döyünən ürəyi dayanır.

Ömrün 27-ci ilində Səxavət Vətən yolunda şəhidlik zirvəsinə ucaldı. Bu qısa, olduqca şərəfli yolu da Vətənə olan həqiqi sevgisini təmənnasız xidmətə çevirdi. İndi səxavət bir ananın övladı deyil, Ana Vətənin övladıdır. Ötən ilin 1 dekabrda 55 yaşı tamam oldu. Həmişəki kimi yenə də harada bir Günəş müqəddəsliyi var, Səxavətin sorağı oradan gəlir. Dünyamız yaşa dolduqca da, bu ilahi sevgi hər yeni nəsil üçün bir örnək olacaq...

***Zəfər Orucoğlu, AJB-nin üzvü***

# ABŞ-ın Rusiyaya gizli cavabı mediada yayıldı

***Yanvarın sonunda ABŞ və NATO Rusiyanın təhlükəsizlik zəmanəti ilə bağlı tələblərinə yazılı cavab verib. Tərəflərin razılığı əsasında həmin mətnlər məxfi saxlanılır, yalnız məzmunu haqda ümumi məlumat verilirdi. Rəsmilərin açıqlamalarından aydın olurdu ki, Vaşinqton və Alyans Rusiyanın əsas tələblərini yerinə yetirməyəcəklər. Yəni, NATO qapılarını açıq saxlayacaq, Rusiya ilə sərhəddə hücum silahları yerləşdirməkdən imtina etməyəcək.***

Amma ötən gün İspaniyanın "El Pais" nəşri həm ABŞ-ın, həm də NATO-nun Rusiyaya yazılı cavabının tam mətnlərini dərc edib. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays brifinq zamanı "El Pais" qəzetində dərc olunan cavabların həqiqiliyini təsdiqləyib. "Mən bu sənədlərdə onların orijinal olmadığına inanmağa əsas verəcək heç nə görmədim", - Prays söyləyib.

**Təqdim olunan materiallarda deyilir ki, Vaşinqton Moskva ilə aşağıdakı məsələləri müzakirə etməyə hazırdır:**

- Rumıniya və Polşada "Tomaqavk" qanadlı raketlərinin yerləşdirilməməsi mexanizmi;
- Ukraynada hücum xarakterli raket sistemləri və qüvvələrinin yerləşdirilməsini məhdudlaşdırmaq üçün qarşılıqlı öhdəliklər;
- Yeni növ nüvə silahlara, eləcə də orta və qısa mənzilli raketlərə nəzarətə də təsir edən alternativ START-3 sazişi;
- Dənizdə və havada insidentlərin qarşısının alınması üçün əlavə tədbirlər

Qərb Şərqi Avropada nüvə silahı yerləşdirməkdən çəkindiyini də vurğulayıb.

Qeyd edək ki, son aylar Rusiya ilə Qərb arasında münasibətlər daha da gərginləşib. Qərb ölkələri Moskvanı Ukraynaya hücum hazırlamaqda ittiham edir, bunun fonunda Şərqi Avropada mövcudluğunu gücləndirir və sanksiyaları sərtləşdirməklə hədələyir. Rusiya bütün iddiaları rədd edir və Kiyevin Minsk razılaşmalarına əməl etmədiyini xatırladır.

Rəsmi Moskvaya görə, hücum hekayələrinin məqsədi Rusiya sərhədləri yaxınlığında xarici qruplaşma yaratmaqdır. Bundan əlavə, Kreml və Xarici İşlər Nazirliyi bəyan edir ki, Ukraynada eskalasiyanın əsas səbəbi ABŞ və NATO-nun ora hərbi təlimatçılar, silah və texnika göndərməsi, təlimlərin sayını artırması və bununla da Kiyevi hərbləşməyə sövq etməsidir.

Rusiya prezidenti Vladimir Putin bir neçə gün əvvəl ABŞ və NATO-nun cavabı ilə bağlı bildirib ki, " üç əsas tələbimizə adekvat yanaşma görə bilmədik. Bunlar NATO-nun şərqə doğru genişlənməsinin qarşısını almaq, Rusiya sərhədləri yaxınlığında hücum silah sistemlərini yerləşdirməkdən imtina, NATO-nun Avropadakı hərbi infrastrukturunu 1997-ci ildəki vəziyyətə qaytarmaqdan ibarətdir".

Prezident xatırladıb ki, indi bloka Baltikyanı ölkələr, Polşa və Rumıniya daxildir, baxmayaraq ki, SSRİ dağılandan sonra Moskvanın qərb tərəfdaşları qitənin bu hissəsində öz iştiraklarını genişləndirməyəcəklərinə söz veriblər.

"El Pais"in dərc etdiyi materiallarda da deyilir ki, NATO açıq qapı siyasətinə qətiyyətlə riayət etməkdə davam edir, lakin Putinin bir qədər əvvəl dediyi kimi, bu, alyansın sənədlərində heç bir yerdə əksini tapmayıb.

# Ukrayna "Dəmir günbəz" lərlə bağlı İsrailə müraciət edib

***Rusiya ilə Ukrayna arasında yaranan gərginlik pik həddə çatıb. Bölgədə müharibə ehtimalı artdığı üçün hər iki tərəf ordunun silahlandırılmasını gücləndirib.***



Rusiya mediası yazır ki, artıq Kiyev Təl-Əvivə də silah alışı üçün müraciət edib.

- Ukrayna hava hücumundan müdafiə sistemlərinin tədarükünə yardım etmək üçün İsrailə müraciət edib. Kiyev həmçinin radar stansiyaları və elektron döyüş sistemləri almağı hədəfləyir. İsrailin "Kan 11" telekanalı Ukrayna hakimiyyətinin rəsmi müraciəti barədə məlumat paylaşıb. Yayılan informasiyada Kiyevin İsrailin hava hücumundan müdafiə vasitələrinin alınması ilə bağlı müqavilə bağlamaq istədiyi vurğulanır. Razılaşma rəsmiləşərsə, tədarüklər yaxın bir neçə il ərzində həyata keçiriləcək. Məlumatda Ukraynanın həm adi hava hücumundan müdafiə sistemlərini, həm də "Dəmir günbəz" taktiki raketdən müdafiə sisteminin alınmasını nəzərdən keçirdiyinə dair təsdiqlənməmiş məlumatlar verilir,- məqalədə yazılıb.

Eyni zamanda, müəlliflər iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə diqqət çəkiblər. 2022-ci ildə Ukrayna prezidenti Vladimir Zelenskinin İsrailə səfəri planlaşdırılır və bu səfər zamanı silah tədarükü ilə bağlı müzakirə aparıla bilər.

Qeyd edək ki, son aylar Rusiya ilə Qərb ölkələri arasında Ukrayna məsələsinə görə gərginlik yaranıb. Bu beynəlxalq hərbi-siyasi gərginliyi "Ukrayna böhranı" da adlandırırlar. NATO və ABŞ rəsmiləri Rusiyanın Ukrayna ilə sərhədə 100 mindən çox qoşun toplamasını Moskvanın qonşusunu işğala hazırlaşması ilə əlaqələndirib. Rusiya rəsmiləri isə silahlı qüvvələrini öz ərazisində yerdəyişmə etmək üçün suveren hüquqa malik olduğunu bəyan edərək bu cür hərbi gedişlərin, heç kimi təhdid etmədiyini söyləyirlər.

ABŞ və bəzi Avropa ölkələri Ukraynada yeni münaqişənin başlanacağı təqdirdə Rusiyanı "görünməmiş sanksiyalarla" hədələyir. Bunun fonunda Şimali Atlantika Alyansı da Şərqi Avropada mövcudluğunu gücləndirir.

***Tural Tağıyev***

# Kreml ABŞ-ın Avropaya əlavə qüvvə göndərmək qərarını şərh edib

***"Rusiyanın ABŞ-ın Avropaya əlavə qüvvələr göndərmək qərarından narahatlığı, həmçinin Moskvanın öz təhlükəsizliyini təmin etmək üçün gördüyü istənilən tədbir tamamilə başadüşüləndir".***



AzVision.az xəbər verir ki, bunu jurnalistlərə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ABŞ-ın Avropaya əlavə qüvvələr göndərmək qərarını şərh edərkən deyib.

"Əlbəttə, Rusiyanın narahatlığı tamamilə başadüşüləndir, tamamilə əsaslandırılmışdır. Rusiyanın öz təhlükəsizliyini və maraqlarını təmin etmək üçün gördüyü istənilən tədbir də anlaşılandır", - Peskov söyləyib.

Qeyd edək ki, ABŞ-ın Müdafiə Nazirliyinin sözçüsü Con Kirbi brifinqdə deyib ki, Pentaqon yaxın günlərdə Rumıniya, Polşa və Almaniyaya əlavə 2000 hərbçi göndərəcək: "Mövcud vəziyyət bizdən NATO-nun Şərq cinahının çəkindirmə və müdafiə imkanlarını gücləndirməyi tələb edir. Bu, hazırkı vəziyyətə reaksiyadır, onlar Ukraynada döyüşməyəcək".

Onun sözlərinə görə, söhbət 82-ci Hava Desant Diviziyası və 18-ci Hava Desant Korpusunun bölmələrindən gedir. Onlar NATO-nun deyil, ABŞ komandanlığı altında olacaqlar.

Bundan əlavə, Pentaqon Almaniyadan Rumıniyaya daha min əsgər göndərəcək, zərurət yaranarsa, qoşunlarını Avropa daxilinə köçürəcək.

Kirbi yaxın vaxtlarda Avropaya əlavə qüvvələrin göndəriləcəyini istisna etməyib. Onlar gələcəkdə Ukraynada "evakuasiyanı asanlaşdırmaq üçün" istifadə edilə bilər. Həmçinin əlavə edib ki, amerikalı hərbi təlimatçılar Ukrayna Silahlı Qüvvələrinin əsgərləri ilə işləməyə davam edəcəklər. Kirbi qeyd edib ki, ABŞ administrasiyası əmindir ki, Ukrayna ətrafında vəziyyətlə bağlı münaqişədən hələ də qaçmaq olar: "Rusiyanın Ukraynaya hücumu ilə bağlı yekun qərar verib-vermədiyini bilmirik. Biz Ağ Ev və ABŞ Dövlət Departamentinin razılığa gəlmək üçün göstərdiyi diplomatik səyləri dəstəkləməyə davam edəcəyik. Biz münaqişənin qaçılmaz olmadığına inanmaqda davam edirik".

"Rusiya prezidenti Vladimir Putinin Rəcəb Tayyib Ərdoğanla danışıqlar aparmaq üçün Türkiyəyə səfərinin konkret tarixi hələlik razılaşdırılmayıb". Bu barədə də jurnalistlərə Rusiya liderinin mətbuat katibi Dmitri Peskov deyib.

Kremlin sözçüsü əlavə edib ki, iki lider səfərlə bağlı fevralın sonu, başqa tarixlər haqqında danışıblar. Tərəflər görüşün epidemioloji vəziyyət və iki prezidentin qrafikləri imkan verən kimi baş tutmasında maraqlıdır: "Hələlik dəqiq tarixlər yoxdur. Amma ümid edirik ki, bu, mümkün qədər tez baş verəcək".

***Pərvanə Sultanova***

# Ukrayna Belarus sərhədini keçdi



***Belarus Müdafiə Nazirliyi sərhəd pozuntularının artması ilə əlaqədar Ukraynanın hərbi attaşesinə zəng etdiyini bildirib.***

"Unikal" xəbər verir ki, bundan əvvəl ölkənin Xarici İşlər Nazirliyi Ukrayna səfirinə öz ərazilərində pilotsuz təyyarənin buraxılması ilə bağlı etirazını bildirmişdi. Nazirliyin məlumatına görə, 2022-ci il yanvarın 24-də cihaz sərhədi qanunsuz keçib, bundan sonra silahlı qüvvələrin mütəxəssisləri tərəfindən məcburi eniş edilib. Bort avadanlığının məlumatlarının təhlili göstərdi ki, PUA Ukrayna ərazisindən "Brestski hərbi poliqonu üzərində qeyri-qanuni kəşfiyyat fəaliyyəti həyata keçirmək" üçün buraxılıb.

İzah edilir ki, bu, 2021-ci ilin noyabrından bəri üçüncü sərhəd pozuntusudur.

Məlumata görə, hərbi attaşeyə bu insidentlə bağlı araşdırma aparılmasının, daha sonra onun nəticələri barədə Belarus tərəfinə məlumat verilməsinin zəruriliyi də bildirilib.

***Ağarza Elçinoğlu***

# Nikola Yurçeviç: "Emreli "Dinamo"da uğur qazana bilər"

***"Dinamo" böyük klub, Zaqreb gözəl şəhərdir. Mahirin daha yaxşı oyunçu olması və öz bacarığını təkmilləşdirməsi üçün çox yaxşı şansdır".***



Bunu apasport.az saytına Azərbaycan millisinin sabiq baş məşqçisi Nikola Yurçeviç Zaqreb "Dinamo"suna keçən Mahir Emrelinin transferini dəyərləndirərkən deyib.

Xorvatiyalı mütəxəssis 25 yaşlı forvardın ölkənin ən köklü klubu ilə anlaşmasını yüksək qiymətləndirib. Yurçeviç "Dinamo"da böyük rəqabətin olmasına baxmayaraq, keçmiş yetirməsinin şans əldə edəcəyini düşünür: "Dinamo"da rəqabət böyükdür. Onların hücum xəttində çox oyunçu var. Amma Mahirin də özünü göstərmək üçün şansı olacaq. Düşünürəm ki, o, "Dinamo"da uğur qazana bilər".

Qeyd edək ki, "Legiya"dan ayrılan Mahir Emreli "Dinamo" ilə 4,5 illik müqavilə imzalayıb.

# Sabiq "Qarabağ"lı Toral Bayramovu fərqləndirdi: "Hələ çox gəncdirlər, "şişə" bilərlər"

***"Gənc futbolçularımız legioner həyatı yaşamağa can atmalıdırlar". Bunu apasport.az saytına Azərbaycan millisinin sabiq hücumçusu Zaur Ramazanov deyib.***

46 yaşlı mütəxəssis Azərbaycan Premyer Liqasında çıxış edən bəzi oyunçuların ölkə xaricinə yollanacaq səviyyədə olduğunu düşünür. O, xüsusən də, gəncləri fərqləndirib: "Ölkə xaricində oynaya biləcək futbolçularımız var. Amma heç kimi İtaliya, İngiltərə, İspaniya kimi ölkələrdə görmürəm. Məsələn, Polşa, Macarıstan, Rumıniya, Xorvatiya çempionatlarına gedib, orada inkişaf eləmək olar. "Qarabağ"ın müdafiəçisi Toral Bayramovun asanlıqla Avropada oynaya biləcəyini düşünürəm. Həmçinin başqa bir neçə oyunçumuz da bunu bacarar. Ancaq onların adlarını çəkmək istəmirəm. Çünki hələ çox gəncdirlər, "şişə" bilərlər".

Ramazanovun fikrincə, yerli oyunçuların xaricdən imtina etmələrinin əsas səbəbi maliyyədir: "Bizim futbolçulara elə klublardan dəvət gəlir ki, onların vəd etdiyi məbləğlə burada qazandıqları maaş arasında elə böyük fərq olmur. Buna görə də düşünürlər ki, evimdə otura-otura rahat qazanıram, 3-5 manata görə niyə gedib əziyyət çəkim? Təbii ki, bu yanlış fikirdir. Bəlkə Avropada elə yerə qədər



yüksələcəklər ki, məvacib də qat-qat çox olacaq. Daha fikirləşmirlər ki, nə vaxt istəsələr Azərbaycana qayıda bilərlər".

Qeyd edək ki, futbolçu karyerasını ölkə daxilində keçirən Zaur Ramazanov "Karvan", "Xəzər Lənkəran", "Qarabağ" və "Bakı" kimi klubların formasını geyinib.

# Qurbanov: "Dinamo" Mahirə inanmasaydı, müqavilə bağlamazdı"

***"Mahirə görə çox sevindim. "Dinamo" Xorvatiyanın ən titullu klubudur və ora onun üçün böyük tramplindir. İnanıram ki, "Dinamo"dakı uğurlu çıxışı sayəsində gələcəkdə daha böyük kluba keçəcək".***

Bunu apasport.az saytına Azərbaycan millisinin sabiq futbolçusu Ruslan Qurbanov yenicə Zaqreb "Dinamo"su ilə müqavilə imzalayan Mahir Emrelinin keçidinə münasibət bildirərkən deyib.



2015-ci ildə Xorvatiyada Split "Hayduk"unun formasını geyinmiş 31 yaşlı hücumçu həmkarının həmin ölkədə uğurlu çıxış edəcəyini düşünür: "Xorvatiyada futbol azarkeşləri ən yaxşılardandır. İnsanları istiqanlıdırlar, futbolla yaşayırlar. "Dinamo" çox sayda futbolçu yetişdirib top-klublara göndərən komandadır. Mahirə inanıram, düşünürəm ki, orada aparıcı oyunçuya çevriləcək. "Dinamo" ona inanmasaydı, müqavilə bağlamazdı".

Hazırda karyerasını Belarus klubu "Slaviya"da davam etdirən Qurbanov "Dinamo" ilə Emrelinin keçmiş komandası "Legiya"nı da müqayisə edib: "Legiya" da yaxşı klubdur. Amma oradakı azarkeşlər çox aqressivdir. "Dinamo" isə fərqli tarixə malikdir. Xorvatiyada səni tənqid edə bilərlər, ancaq bundan artığı olmur. "Dinamo"nun prezidenti klubu və futbolçuları ilə daim maraqlanır. Üstəlik, zaqreblilər stabil olaraq hər il Çempionlar Liqası və ya Avropa Liqasında çıxış edir. Bunları "Legiya" üçün demək olmaz".

Ruslan Qurbanov 25 yaşlı forvardın Xorvatiyadan daha böyük liqaya yollanacağını proqnozlaşdırıb: "Xorvatiyada, xüsusən də, "Hayduk"a qarşı oyunda gözəl atmosfer görəcək. Çünki Split klubu ilə matçlar hər zaman gərgin alınıb. Fikrimcə, Mahir düzgün seçim etdi. Tezliklə onu daha böyük çempionatda görəcəyik".

Qeyd edək ki, Mahir Emreli "Dinamo" ilə 4,5 illik müqaviləyə qol çəkib.

# "Qarabağ"ın oyununun vaxtı dəyişdirildi

***Azərbaycan kubokunda 1/4 final mərhələsinin cavab oyunlarının təqvimi müəyyənləşib.***



Qarşılaşmalar öncədən planlaşdırıldığı kimi iki günü deyil, üç günü əhatə edəcək. Buna "Qarabağ" səbəb olub. Ölkəmizi Avropa Konfrans Liqasının pley-off mərhələsində təmsil edəcək Ağdam klubu "Keşlə"yə qarşı səfər oyununun vaxtının 1 gün dəyişdirilməsi ilə bağlı PFL-ə müraciət edib. Yarışların Əsasnaməsini və "Keşlə"nin razılıq məktubunu rəhbər tutan qurum "Keşlə"- "Qarabağ" oyununu fevralın 12-dən 11-nə keçirib.

Qeyd edək ki, cavab görüşləri "CBC Sport" kanalı vasitəsilə canlı yayımlanacaq.

**Azərbaycan kuboku**
**1/4 final, cavab oyunu**

**11 fevral (cümə)**
18:00. "Keşlə" - "Qarabağ"
"ASK Arena"

**12 fevral (şənbə)**
16:00. "Sabah" - "Neftçi"
"Bank Respublika Arena"

**13 fevral (bazar)**
18:00. "Səbail" - "Zirə"
"ASCO Arena"

15:00. "Qəbələ" - "Sumqayıt"
Qəbələ şəhər stadionu

# "Bavariya" hücumçusunu icarəyə verdi



***"Bavariya" futbolçusu Nemanya Motikanı icarəyə verib.***

Qol.az cəbər verir ki, 18 yaşlı hücumçu karyerasını "Srvena Zvezda"da davam etdirəcək. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Forvard Serbiya klubu ilə 4 illik müqavilə imzalayıb. Motika yeni komandasında 17 nömrəli formanı geyinəcək.

Qeyd edək ki, Motika "Bavariya"nın ikinci komandasında 27 oyuna 16 qol vurub və 8 qolun ötürməsini verib. ?2003-cü ildə Berlində dünyaya gəlmiş Nemanya Serbiyanın U-19 yığmasında çıxış edir.

# Ronaldo: "Oğlumu heç nəyə məcbur etməyəcəyəm"

***"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo oğlu Junior Ronaldo haqqında danışıb.***



Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu övladını heç nəyə məcbur etməyəcəyini və sevdiyi işi görməsi üçün şərait yaradacağını bildirib:

"Hər şeyi zaman göstərəcək. Heç vaxt onu nəyəsə məcbur etməyəcəm. O, sevdiyi işi görəcək. Övladlarım hər zaman hansı sahəni istəyirlərsə, onu seçməkdə azad olacaqlar. Mən istənilən situasiyada onlara dəstək olacağam".

Qeyd edək ki, Junior Ronaldo "Mançester Yunayted"in akademiyasında çıxış edir.